# DÜŞÜNƏN İNSAN

№ 20 - Aprel 2013 - 2 AZN



# TƏKAMÜL NƏZƏRİYYƏSİNİN MƏKTƏB TERRORLARINDA ROLU



- İslamı təbliğ etmə şövqü insanı ruhlandırır
- Hüceyrədəki bənzərsiz hasilat: zülal sintezi
- Zalımlıq və rəhmsizlik inancsızlığın nəticəsidir
- Kainatı bürüyən yaradılış möcüzəsi: fraktal həndəsə
- Həqiqi sevgi ancaq hörmətlə yaşana bilər

## 3 FİLM HƏDİYYƏ

Həyat mənbəyi olan ulduz: Günəş

Gözdəki möcüzə

Atom möcüzəsi


بسم الله الرحمن الرحيم
Bu jurnalın məqalələrinin hazırlanmasında
Harun Yəhya (Adnan Oktar)
əsərlərindən istifadə edilmişdir
Aylıq abunə olmaq istəyənlər üçün
əlaqə nömrəsi
012-434-93-01
الله
رسول
محمد

DÜŞÜNƏN İNSAN - Aprel 2013;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (077) 381 61 91; E-mail:admin@dusuneninsan.info
“Düşünən İnsan” jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# DÜŞÜNƏN İNSAN

# içindəkilər



Elmi-texnoloji xəbərlər 4
İslam dünyasında keçən ay 6
Səhraların möcüzəvi canlısı olan dəvə elmə ilham verir 10
Bir ayə, bir açıqlama 15
Uca Allah’ın rəng sənətinin ən gözəl təcəllilərindən biri: qızılqazlar 20
İslamı təbliğ etmə şövqü insanı ruhlandırır 24
Kainatı bürüyən yaradılış möcüzəsi: fraktal həndəsə 36
Hüceyrədəki bənzərsiz hasilat: zülal sintezi 39
İmanlarına zülm qarışdıranlar 40
Zalımlıq və rəhmsizlik inancsızlğın nəticəsidir 44
Necə nəfəs alırıq? 47
Zəif imanlı insanın inkarçıların mühitinə meyil etməsinin əsas səbəbləri 54
Həqiq sevgi ancaq hörmətlə yaşana bilər 56
Fosillər təkamülü təkzib edir 60
İohan Kepler iman haqqında 64






















*Şübhəsiz ki, heyvanlarda da sizin üçün bir ibrət vardır.*

*(Nəhl surəsi, 66)*

*www.dovletebaglilig.com*

*Prezident İlham Əliyev martın 18-də Bakıda BMT-nin, Azərbaycan hökumətinin və İSESCO-nun təşkilatçılığı ilə keçirilən "Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi" mövzusunda Beynəlxalq konfransa çıxışından: "Təəssüflər olsun ki, biz beynəlxalq mətbuatı oxuyanda görürük ki, bəzən terrorçuluğu İslamla bağlamaq cəhdləri vardır. Artan islamofobiya ilə bağlı müsəlman aləmində müəyyən narahatlıq vardır. Fikrimcə, beynəlxalq ictimaiyyət, xüsusən də media nümayəndələri, qeyri-hökumət təşkilatları daha məsuliyyətli davranmalıdırlar və bütün dünyada 100 milyonlarla müsəlmanın hisslərinə toxunmamalıdırlar. Terrorçuluğun nə dini, nə də milliyyəti vardır. Milli, eləcə də dini mənsubiyyətlərindən asılı olmayaraq, bütün bəşəriyyət terrorçuluqdan əziyyət çəkir. Fikrimcə, bu, daim diqqətdə qalmalı mühüm məsələlərdən biridir. Biz səylərimizi birləşdirmədən bu məsələni lazımi şəkildə həll edə bilməyəcəyik."*

*İlham Əliyev*





# Elmi-Texnoloji Xəbərlər



## YENİ DÖVR BAŞLAYIR!
## İLK TELEPATİK RABİTƏ HƏYATA KEÇİRİLDİ

Elm adamları ayrı qitələrdəki iki siçanın beynini bir-biri ilə birləşdirib. Ayrı yerlərdə olan siçanlar beyinlərindəki elektrodlar vasitəsilə bir-birlərini idarə edə bilib.

Braziliyanın bir tədqiqat institutundakı siçan elektron rabitə ilə ABŞ-da yerləşən bir laboratoriyadakı digər siçana impuls göndərərək onu idarə edib və su götürməsini təmin edib. Tədqiqatçılardan Miqel Nikolesis iki beyin arasında funksional rabitə quraraq iki beyinli "superbeyin" əldə etdiklərini deyib. Nikolesis bu kəşfin iflic xəstələrinin müalicəsinə kömək edəcəyinə diqqət çəkib.

Miqel Nikolesis və tədqiqat qrupu, əvvəlcə, siçanları su götürmək məqsədilə işıq yandıqda lingə basmaq üçün təlimləndirib. Sonra siçanların hərəkətlə əlaqədar məlumatı idarə edən beyin bölgəsinə incə elektrodlar yerləşdirilib və bir-birləri ilə əlaqə qurmaları təmin edilib. Birinci siçan sınaqdan uğurla keçdikdə, yeni düzgün lingə basdıqda beyni elektrik impulsu göndərib. Bu impuls eyni anda digər siçanın beyninə göndərilib. İkinci siçan su götürmək üçün digər siçanın göndərdiyi impulslar sayəsində heç bir əyani vasitə olmadan 70% düzgün seçimlə lazımi lingi tapıb.

Nikolesis ikinci siçanın düşüncə və ya görüntülər olmadan, impulslar sayəsində birinci siçanın verdiyi qərara əsasən lingi tapdığını bildirib. Prosesin ikitərəfli işlədiyini bildirən elm adamları birinci siçanın səhv etdikdə daha güclü, aydın impulslar göndərdiyini qeyd edib. Elm adamları bundan sonra 2014-cü ildə Braziliya Dünya Kubokunda beldən aşağı hissəsi iflic olan bir xəstənin bənzər metodla süni ayaq vasitəsilə topa ilk zərbəni vurmasını təmin etməyi hədəflədiklərini bildirib. Tədqiqat "Nature Scientific Reports" jurnalında dərc olunub.



## TANRI ZƏRRƏCİYİNİ KƏŞF ETDİK

İsveçrədə həyata keçirilən CERN fizika tədqiqat mərkəzi kainatın əmələ gəlməsi haqqındakı ən böyük sirlərdən biri qəbul edilən subatom zərrəcik "hiqqs bozonu"nun qəti müəyyən edildiyini bildirib.

CERN Nəhəng Nüvə Toqquşdurucu qurğuda (LHC) keçirilən təcrübələrdə "Tanrı zərrəciyi" adlandırılan hiqqs bozonunun tapıldığını açıqlayıb.

CERN layihəsinin baş direktoru Rolf Heyer 4 iyun 2012-ci ildə təşkil olunan konfransda verdiyi tarixi açıqlamada yeni subatom zərrəcik kəşf etdiklərini bildirmişdi. Ancaq bu yeni zərrəciyin hiqqs bozonu olub-olmadığına dair qəti nəticə əldə edilməmişdi. Elm adamları açıqlamalarında nəhəng nüvə toqquşdurucu qurğuda keçirilən təcrübələrin nəticələrinin hiqqs bozonunun tapıldığına dair çox dəqiq məlumatlar daşıdığını bildirmişdi.

CERN tərəfindən bu gün verilən açıqlamada isə LHC-də 3 il ərzində keçirilən təcrübələrin "Tanrı zərrəciyi"ni qəti aşkar etdiyi ifadə edilib.

### Nəhəng məlumat təhlili

CERN-də hiqqs bozonunun tapılması üçün aparılan iki təcrübədə - "Atlas" və "CMS"-də iştirak edən tədqiqat qrupları 2012-ci ilin iyun ayında keçirilən təcrübədə əldə edilən məlumatları tədqiq edib.

CMS qrupundan nümayəndə Co İnkandela: "2012-ci ildə əldə edilən məlumatlardan aldığmız ilkin nəticələr əladır və sizə hiqqs bozonunu tapdığımızı deyə bilərəm. Ancaq nə cür hiqqs bozonu olduğunu izah etmək üçün qarşımızda hələ uzun yol var", - deyib.

"Atlas" təcrübə qrupundan nümayəndə Deyv Çarlton isə: "Nəzərdən keçirdiyimiz yeni nəticələr özünü bu işə həsr etmiş bir çox insanın çox böyük cəhdi ilə əldə edilib. Nəticələr "standart model"də olduğu kimi, hiqqs bozonunun xassəsini göstərir. Hiqqs səviyyəsində ölçmə proqramlarına başlamışıq", - deyə bildirib.

### "Standart model" tamamlanıb

Elm adamları kainatın əmələ gəlməsi haqqında ən əsas məlumatları daşıdığına inandıqları hiqqs bozonunu kəşf edərək standart model anlayışında çatışmayan cəhətləri də aradan qaldırmaq istəyirdilər.

Standart model maddəni təşkil edən zərrəcikləri və bu zərrəciklər arasındakı rabitələri təmsil edən 3 qüvvəni (elektromaqnit qüvvəsi, zəif nüvə qüvvəsi və güclü nüvə qüvvəsi) açıqlayır.

Hiqqs bozonunun tapılması ilə maddələrin nə üçün müəyyən sıxlığa malik olduğu sualına cavab tapılacaq. Eyni zamanda, bəzi maddələrin sıxlığının nə üçün digərlərindən daha çox olduğu da məlum olacaq.

Fizika sahəsində inqilabi kəşf olacaq hiqqs bozonu standart modeli tamamlayaraq kainatın subatom zərrəcik səviyyəsində necə formaya malik olduğunu da göstərəcək.

### 50 il sonra əldə edilən uğur

Əvvəlcə, 1960-cı ildə başlayan təcrübələrlə hiqqs bozonunu axtarmağa çalışan elm adamları subatom zərrəcikləri toqquşdurmaq üçün Fransa-İsveçrə sərhədi altında uzanan 26 km uzunluğundakı Böyük Nüvə Toqquşdurucu qurğuda keçirilən təcrübələrdə nəhayət uğur əldə etdilər.

Böyük Nüvə Toqquşdurucu qurğuda atomları demək olar ki işıq sürəti ilə toqquşduraraq subatom zərrəciklərin üzə çıxarırlar. Elm adamları Tanrı zərrəciyinin toqquşmada saniyənin trilyonda birindən də qısa müddətdə göründüyünü, daha sonra digər zərrəciklərə çevrildiyinə inanırlar.

1993-cü ildə hiqqs bozonu haqqında yazdığı kitabı "Tanrı zərrəciyi" adlandıran Nobel mükafatı laureatı fizik Leon Lederman, beləcə, subatom zərrəciyin xalq arasında qəbul edilən adını qoyub.



# İslam Dünyasında

## Qəbələdə səfərdə olan Prezident İlham Əliyev yeni məscidin açılışında iştirak edib

Dövlət başçısına məlumat verilib ki, məscidin tikintisinə 2010-cu ilin may ayında başlanılıb. Heydər Əliyev Fondunun sifarişi ilə tikilən məscid binasının layihəçisi "Konstruktor MMC", binanın podratçısı isə "Gilan inşaat" MMC-dir. Binanın tikinti sahəsi 715 kvadratmetr, minarənin hündürlüyü isə 25 metrdir.

Məsciddə yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verilib ki, burada eyni vaxtda 450 kişi, 150 qadın olmaqla, ümumilikdə 600 nəfər müsəlman ibadət edəcəkdir.

Məscidin müqəddəs Qurani-kərimdən surələr yazılmış divarları və sütunları Azərbaycan nəqqaşlıq məktəbinin və şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunmaqla, dini rəmzlərlə bəzədilib. Dini ocağın həyətində kiçik memarlıq üslubunda iki fontan da inşa edilib. Məscidin həyətində, həmçinin axund, dərs, kitabxana, mərasim, qadın və kişilər üçün dəstəmaz otaqları və köməkçi tikililər inşa olunub. Binanın həyəti yaşıllaşdırılmış, dekorativ ağaclar əkilmiş, müasir işıqlandırma sistemləri quraşdırılmışdır.

Prezident İlham Əliyevə Qurani-kərim hədiyyə olunub. Dövlət başçısı məsciddə yaradılan şəraitdən razılığını bildirib, müvafiq tapşırıq və tövsiyələrini verib.



## PAPA: "XÜSUSİLƏ İSLAMLA DAHA SIX DİALOQ QURMALIYIQ"

Katolik dünyasının yeni dini lideri Papa Fransisko Vatikana təyin edilmiş xarici ölkə səfirlərini qəbul edərək: "Müxtəlif dinlərlə və xüsusilə İslamla daha sıx dialoq qurmalı və bunu gücləndirməliyik", - deyib.

Papa: "Sülh naminə müxtəlif sivilizasiyalarla, xalqlarla əlaqə qurmalıyıq. Bunlar qəlbimdən keçən duyğulardır", - deyə qeyd edib.

Papa Fransisko inancı olmayanlarla da ünsiyyət qurmağın və bu münasibətləri möhkəmləndirməyin əhəmiyyətini vurğulayaraq: "Papalıq mərasimində Romada olan İslam dünyasının istər din adamları, istərsə də dövlət nümayəndələri məni çox sevindirdi. Bu, çox müsbət, gözəl irəliləyişdir. Buna görə, İslamla münasibətlərə əhəmiyyət veririk", - deyib.

Papa: "Dinlərarası körpülər qurarkən Vatikanla diplomatik əlaqəsi olmayan az sayda ölkə ilə də rəsmi münasibətlərin tezliklə qurulmasını arzu edirəm", - deyə ifadə edib.



# Keçən Ay

## RUSİYADA "ƏSMAYİ-HÜSNA" SƏRGİSİ

Rusiyanın paytaxtı Moskvada "IX-XIX əsrlərdə İslam dünyasının klassik incəsənəti: Allah'ın 99 adı" sərgisi açılıb.

Moskvadakı Dövlət Puşkin İncəsənət Muzeyində Rusiya Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə təşkil olunmuş sərgidə Mərcani Elmi və Mədəni Proqramlara Dəstək Təşkilatına aid 100-dən çox əsər nümayiş etdirilib. Sərgi İslamın meydana gəlməsindən monqol işğalına, Çingiz Xan dövründən monqol işğalından sonrakı dövrə qədərki mərhələni əhatə edən 3 bölmədən ibarət idi. Sərginin birinci hissəsində Şimali Afrika, Suriya, İraq, İran, Orta Asiya və Anadolu kimi İslam dünyasının əsas bölgələrindən gətirilən əsərlər var idi. İkinci hissədə Çindən Şərqi Avropa ölkələrinə qədər İslam incəsənəti nümayiş etdirilirdi. Üçüncü hissədə isə Məmlüklər, Osmanlı xanədanı, Teymurilər, Səfəvilər və Qacar sülaləsinin saray emalatxanalarında hazırlanmış əsərlər var idi. Tayı-bərabəri olmayan əsərlər arasında IX əsrdə Abbasilər dövründən qalmış Qurani-kərim səhifəsi, İran, Azərbaycan, Mesopotamiya naxışları və xəttatlıq nümunələri olan orta əsr kasaları, Suriyaya məxsus X əsrdə qızıl yarpaqla bəzədilmiş şüşə kasa və bir çox əsərlər yer tuturdu.

Sərgidə xüsusilə XVI əsrin ortalarında düzəldilmiş və üstündə uca Allah'ın 99 isminin yazıldığı böyük xalça diqqət çəkirdi.





## Kilsədə namaz qılınacaq "İncil belə vəziyyətdə qonşuya yardım etməyi əmr edir"

Şotlandiyanın Aberdin şəhərindəki məscid namaz qılan möminlərə kifayət etmədiyi üçün rahib İsak Pobalan fəaliyyət göstərdiyi "St. John" kilsəsinin bir qismini namaz qılanlara təsis edib. Rahib məscid çox kiçik olduğundan müsəlmanları həyətdə qalaraq yağış altında namaz qıldığı üçün narahat olduğunu deyib.

"Əgər yardım etməsəydim, bu, mənim əqidəmə zidd olardı. İbadət etmək gözəl bir şeydir. Mənim işim insanları ibadətə çağırmaqdır. Məscid həmişə dolub daşır, möminlər namazlarını küləkdə və yağışda qılırdı. İncil belə vəziyyətdə qonşuya yardım etməyi əmr edir", – deyə rahib bildirib.



# "İslam əxlaqında qadın dəyərlidir" adlı konfrans və fosil sərgisi keçirilib

*17 mart 2013-cü il tarixində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin müsbət rəyi, Gənclərin Mənəvi İnkişafı İctimai Birliyinin təşkilatçılığı ilə Park İNN otelində "İslam əxlaqında qadın dəyərlidir" adlı konfrans keçirilib.*

*Tədbiri giriş sözü ilə açan Aysel Vəlizadə 2007-ci ildən bəri fəaliyyət göstərən GMİİB-in fəaliyyətləri barədə məlumat verib. Təşkilatın bu vaxtadək gəncləri elmi-mənəvi dəyərlərə sahib olmağa dəvət edən bir çox tədbirlər təşkil etdiyini, bu tədbirlərin arasında "Heydər Əliyev irsi və dövlətçiliyin qorunmasında mənəvi dəyərlərin rolu", "Kainatın yaradılışı", "Təkamül nəzəriyyəsinin süqutu", "İslam terroru lənətləyir", "Sosial problemlərin həlli yolları" kimi konfransların olduğunu bildirib.*

*Açılışdan sonra "İslam əxlaqında qadın dəyərlidir" mövzusunda çıxış üçün söz Rövşən Əkbərova verilib. R.Əkbərov çıxışını dünyada müsəlmanlar haqqında yanlış təsəvvürlərin formalaşdığını, bu yanlış örnəklərə görə, bir çox insanın ağlına müsəlman dedikdə sərt, sevgisiz, bədbin, incəsənət anlayışından məhrum, elmə qarşı olan, zarafat anlayışı olmayan, geyinməyi bilməyən, musiqidən zövq almayan, nəzakətsiz, şəfqətsiz insanlar gəldiyini qeyd etməklə başlayıb. Bunun böyük xəta olduğunu qeyd edən R.Əkbərov bu tip düşüncələrin fərqində olmadan bir çox insana zərər verdiyini, İslamdan uzaqlaşdırdığını bildirib və bu bəladan xilas olmağın yeganə yolunun Quranda bildirilən, xurafatdan uzaq İslam əxlaqını tam mənimsəməklə olduğunu vurğulayıb.*



*Sonra "Allah'ın varlığının dəlilləri və Quran Möcüzələri" mövzusunda çıxış etmək üçün söz Sevinc Haqverdizadəyə verilib. O öz çıxışında kainata hakim olan mükəmməl nizam və dizayndan danışıb. Big Bang nəzəriyyəsi ilə elmin Allah'ın varlığını sübut etdiyini qeyd edən mühazirəçi müasir dövrümüzün inkişaf etmiş elm və texnologiyası ilə kəşf edilmiş elmi faktların bundan 1400 il əvvəl nazil edilmiş Qurani-kərimdə bildirilməsinin onun həqiqətən də Allah qatından nazil edildiyinin və bu illər ərzində heç bir təhrifə məruz qalmadığının sübutu olduğunu bildirib.*

*Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb və iştirakçılar canlıların milyonlarla il ərzində heç bir təkamül keçirmədiyini əks etdirən fosil sərgisinə baxmağa dəvət ediliblər.*



# SƏHRALARIN MÖCÜZƏVİ CANLISI OLAN DƏVƏ ELMƏ İLHAM VERİR

- *Dəvələrin burnu səhraların yaşıllaşdırılmasına necə ilham mənbəyi olub?*
- *Dəvə qanından tibb sahəsində necə istifadə edirlər?*
- *Dəvələrin həzm sistemi necə qüsursuz tənzimlənir?*
- *Bu canlılar çətin səhra şəraitində balalarını necə qidalandırırlar?*
- *Dəvələr haqqındakı Quran möcüzəsi necədir?*

Ərəb dilində "dəvə", yəni "ibil" gözəlləşdirən, gözəllik verən mənalarındadır. Bədənindəki hər təfərrüat bir yaradılış möcüzəsi olan dəvəni uca Allah, həqiqətən, mənası kimi insanlara xeyir verməsi və xidmət etməsi üçün yaratmışdır.

Uca Allahın Quranda **"Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır?" (Ğaşiyə surəsi, 17)** ayəsi ilə diqqət çəkdiyi dəvə Rəbbimizin mükəmməl yaratma sənətini göstərən möcüzəvi xüsusiyyətlərə malikdir.

## Dəvənin burnu Afrikanın ən böyük enerji layihəsinə ilham mənbəyi olub

Dəvələrin yaşadığı qızmar səhralarda temperatur yüksək olmasına baxmayaraq, buxarlanacaq su olmadığına görə rütubət çox azdır. Rütubətin bu qədər az olduğu mühitdə dəvə nəfəs alarkən havadakı rütubəti itirməməlidir. Ona görə, uca Allah dəvələrin burnunu böyük, qırışlı və süngərəbənzər toxuma ilə örtülü yaratmışdır. Bu qüsursuz burun quruluşu sayəsində dəvələr havadakı rütubətin 66%-ini saxlayırlar. Beləliklə, nəfəs aldıqda 40°C-dən yuxarı temperaturu 20°C-yə qədər azaldaraq ağciyərləri üçün əlverişli edirlər. Hər cəhətdən möcüzəvi xüsusiyyətlərə malik bu səhra canlısı uca Allah'ın yaratdığı sistemə görə, havadakı rütubəti hesablayaraq nəfəs alacağı havanı soyudur.

Dəvələrin burnundakı bu sistemdən ilham alan elm adamları dəvədəki bu sistem kəşf edilməzdən əvvəl heç təsəvvürlərinə belə gətirmədikləri



layihə üzərində işləyirlər: səhrada meşə salmağı və Saxara səhrasını nəhəng elektrik stansiyasına çevirməyi planlaşdırırlar. Layihəyə əsasən, səhranın 1%-dən bir az böyük sahədə hasil ediləcək enerji bütün dünyadakı elektrik stansiyalarının birlikdə hasil etdiyi enerji miqdarına bərabər olacaq. Dizayn edilən sistemdə səhranın ətrafındakı okean və dənizlərdən götürülən su duzdan təmizlənəcək, güzgülər vasitəsilə əldə edilən günəş enerjisi sayəsində nasos və borularla səhraya gətiriləcək və su dəvənin burnundan ilham alınaraq qurulan bir sistemlə bitkilərin köklərinə veriləcək. Strateji yerləşdirilən bəndlər isə istixananı sərin saxlayaraq bitkilərin böyüməsi üçün ideal temperatur meydana gətirəcək. Bu sayədə buxarlanmanın və sızmanın səbəb olduğu su itkisi ən az səviyyəyə endiriləcək və səhranın bəzi sahələri 8°C-yə qədər soyudulacaq. Göründüyü kimi, dəvələrin burnundakı mükəmməl sistemdən ilham alan elm adamları uca Allah'ın üstün yaratma sənətindən nümunə götürürlər. Ayədə bu həqiqət belə bildirilir:

**... Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır! (Əraf surəsi, 54)**

## Dəvələr 10 dəqiqədə 130 litr su içmələrinə baxmayaraq, həyati funksiyalarını necə itirmirlər?

Ağlasığmaz xüsusiyyətlərə malik olan dəvələr qızmar səhrada uzun müddət susuz yaşayacaq şəkildə yaradılıblar. 10 dəqiqədə 130 litr su içən dəvələr günlərlə davam edən səfərlərində ehtiyacları olan mayeni mədələrində toplayırlar. Normal şəraitdə bir çox məməli heyvan temperatur yüksək olduqda soyumaq üçün tərləyir. Bu şəkildə, bədənlərindəki su qısa müddətdə tər şəklində xaric olunur. Ancaq dəvələr tərləmək əvəzinə bədən temperaturlarını normal şəraitdəkinə nisbətən 11°C artırırlar. Beləliklə, bədənlərindəki suyu uzun müddət saxlayaraq sudan maksimum dərəcədə faydalanırlar. Bir insanın normal bədən temperaturu 37°C-dir. Bədən temperaturunda dəyişikliklər olduqda ölümcül nəticələr verir. Lakin uca Allah'ın mükəmməl yaratması ilə dəvələr bu prosesi problemsiz həyata keçirirlər. Səhra həyatına uyğun yaradılmış dəvələrdəki bu mexanizmdə digər diqqətçəkən cəhət isə dəvənin 130 litr suyu 10 dəqiqədə içdiyi halda, həyati funksiyalarını davam etdirməsidir. Qandakı suyun miqdarı həddindən artıq artmasına baxmayaraq, dəvənin həyatının təhlükəyə girməməsi heyrətamizdir. Üstəlik, dəvələr bu qədər çox su içərək qanlarının həcmini 30% azaldırlar. Başqa canlının qan dövranı qanın bu qədər azalmasına tab gətirə bilməz. Çox su içdikdə qandakı su miqdarı digər maddələrə müqayisədə artır. Qan hüceyrələrinin içində daha az su olduğuna görə, hüceyrə kənardan su sormağa başlayır. Beləliklə, hüceyrələr həddindən artıq şişərək partlayır və ölümə səbəb olurlar. Z. Etzion və R. Yagil adlı bioloqlar dəvələrin bu qədər çox su içib necə həyatda qaldıqlarını araşdırmış və susuz qalmış dəvənin içdiyi suyu birbaşa qan damarlarına ötürdüyünü, digər bütün orqanların bu dəyişikliyə görə tənzimləndiyini müəyyən etmişlər.



Düşünən İnsan, Aprel 2013

Dəvələr qandakı suyun miqdarını həddindən çox artırdıqları halda, hüceyrələrinin partlamasının qarşısını alan amil qan hüceyrələrini örtən xüsusi zülal təbəqəsidir. Bu təbəqə osmos səbəbi ilə şişən hüceyrələrin divarlarının gərilməsinin qarşısını alır, hüceyrələri parçalanmağa qoymur. Aləmlərin Rəbbi olan uca Allah dəvələrin həyatını davam etdirməsi üçün hüceyrələrini şişərək partlamaması üçün oval formada yaratmışdır. Qurandakı **"Məgər Bizim Öz əllərimizlə onlar üçün davarlar yaratdığımızı və özlərinin də onlara sahib olduqlarını görmürlərmi?!" (Yasin surəsi, 71)** ayəsi uca Allah'ın mükəmməl yaratma qüdrətini açıqlayır.

Yer üzündəki milyonlarla növdə canlının bənzərsiz xüsusiyyətlərinin necə meydana gəldiyini düşünən insan bunların bircəsinin belə şüursuz hadisələrlə formalaşmadığını, bir canlının öz-özünə qüsursuz xüsusiyyətlər qazanmadığını, bu canlının bir hissəsinin belə təsadüfən əmələ gəlmədiyini dərhal anlayar. Bütün heyvanlar, bitkilər, insanlar Allah tərəfindən qüsursuz yaradılmışdır. Ağıl və vicdanla düşünən insanlar üçün bu, açıq-aydın həqiqətdir.

Bu həqiqəti dərk etmək və bütün həyatını buna əsasən tənzimləmək hər insanın öz xeyrinədir. Çünki insanın dünyadakı vəzifəsi Allah'ın ehtişamlı yaratmasını görmək və Allah'ın sonsuz gücünü, elmini təqdir etməkdir:

**Sizin Tanrınız ancaq O Allah'dır ki, Ondan başqa heç bir Tanrı yoxdur. O, elm ilə hər şeyi ehtiva etmişdir!" (Taha surəsi, 98)**

## Möcüzəvi şəffaf göz qapağı

Dəvələrin gözləri qum fırtınalarından qorunmaq üçün 3 qapaqlıdır. Lakin məlum olduğu kimi, göz qapaqlarımızı yumduqda kənar mühiti görə bilmərik. Ona görə, səhrada uzun yol qət edən dəvə qum fırtınası olduqda gözü görmədən yoluna davam edə bilməz. Ancaq uca Allah'ın Alim ismi dəvələrin göz qapaqlarında ən mükəmməl şəkildə təcəlli edir və şəffaf göz qapaqları ilə dəvənin yeriyərkən görməsinə vəsilə olur. Bu şəffaf göz qapaqları eynək kimi heyvanın gözlərini qumdan qoruyur, həm də gözləri qapalı ikən işığı görməsini təmin edir. Uzun, sıx yaradılmış kirpiklər də lazımi ehtiyacı ödəyir. Bundan əlavə, gözlərin ətrafındakı möhkəm sümüklər həm zərbələrə, həm də günəş şüalarına qarşı gözü qoruyur. Rəbbimizin sonsuz elmi və yaratma sənəti dəvələrdə olduğu kimi, bütün canlılarda güclü təcəlli edir.

**Gözlər Onu dərk etməz. O, gözləri dərk edər. O, lətifdir, xəbərdardır! (Ənam surəsi, 103)**

## Hər şeyi həzm edən həzm sistemi və sudan maksimum fayda təmin edən ifrazat sistemi

Allah dəvələrin həzm sistemini səhradakı məhdud qida müxtəlifliyinə uyğun yaratmışdır. Dəvələr yem tapmadıqda qida hesab olunmayan kauçuk, tikan kimi maddələr yeyirlər. Uca Allah'ın yaratdığı güclü dişləri, yarıq üst dodaqları və xüsusi ağız quruluşu sayəsində belə maddələri asanlıqla yeyə bilirlər. Əlbəttə, hər şeyi həzm edən güclü mədələri də buna kömək olur. Mədə seliyinin parçalayıcı təsiri ilə ən bərk maddələri də həzm edirlər. Digər məməlilərin mədəsi 1 kameralı olur, dəvələrin isə mədəsinin 800 kamerası var. Qida və su bu kameralarda saxlanılır. Bundan əlavə, dəvələr mədələrindəki həzmə kömək edən bakteriyalar vasitəsilə digər



canlıların həzm edə bilmədiyi sellülozanı asanlıqla həzm edirlər. Rəbbimizin yaratdığı bu üstün xüsusiyyətlər sayəsində normal şərtlərdə gündə 30-50 kq qida qəbul edən dəvələr çətin şəraitdə gündə sadəcə 2 kq quru otla bir ay yaşaya bilirlər.

Dəvələrin böyrəkləri də yaradılış möcüzəsidir. Dəvələrin böyrəkləri səhra şəraitinə uyğun olaraq az miqdarda maye ilə işləyirlər. Dəvələr möcüzəvi xüsusiyyətə malik böyrəkləri sayəsində su tapmadıqda, duzlu dəniz suyu içə bilir. Suyun geri sorulmasını təmin edən sidik kanalı da digər heyvanlardakından daha uzundur. Beləliklə, daha çox su geri sorulur və su itkisi az olur. Beləcə, su qıtlığı zamanı gündəlik 5-10 litrlik sidik ifrazını 90% azalda bilirlər. Normal şərtlərdə məməlilərin böyük hissəsi böyrəklərində yığılmış sidik qana qarışdıqda zəhərlənib ölür. Dəvələrdə isə vəziyyət fərqlidir. Dəvələrin böyrəkləri bədənlərindəki sidiyi təmizləyərək dəfələrlə qaraciyərdən keçirir. Bu yolla sudan və qidalardan maksimum faydalanırlar. Dəvələrin orqanlarındakı hər mükəmməl təfərrüat bütün üstün sifətlərin sahibi uca Allah'ın qüdrətini göstərir.

## Hamiləlik və balaya süd verilməsi

Dəvələrin hamiləlik müddəti 13 aydır. Bala dəvələr, əsasən, qış fəslində doğulurlar. Doğuş vaxtı, Allah'ın izni ilə, quraq səhranın təzə otlarla örtüldüyü və çoxlu su quyusunun olduğu dövrə düşür. Balalar 1.5 il ərzində ana südü ilə qidalanırlar. Ancaq quraq mühitdə südə də qənaət etmək lazımdır. Aləmlərin Rəbbi olan uca Allah'ın mükəmməl tənzimləməsi ilə süd ancaq balaya südvermə vaxtlarında gəlir.

**Məgər onlar Allahın yaradılmışları əvvəlcə necə xəlq etdiyini, sonra da onları yenidən təkrarladığını görmürlərmi? Həqiqətən, bu, Allah üçün asandır. (Ənkəbut surəsi, 19)**

## Tibbin yeni ümidi: dəvə qanı və şəfa mənbəyi dəvə südü

Sonsuz elm sahibi uca Allah'ın səhrada insanların xidmətinə vermək üçün yaratdığı dəvələr, elm adamlarının fikrincə, tibbin gələcəyini işıqlandırır. Çünki bir müddət əvvəl elm adamları yalnız dəvələrin qanında olan "nanobady" adlanan



antitellərin müalicəvi xüsusiyyətini kəşf ediblər. Dəvə antitellərinin virusları tutub öldürdüyünü öyrənən tədqiqatçılar QİÇS və xərçəng kimi xəstəliklərin müalicəsində antitellərin təsirli olacağını bildirirlər.

Dəvə qanı ilə yanaşı, əsrlərdir səhradakı köçərilər tərəfindən qida kimi istifadə olunan dəvə südünün faydaları da çoxdur. Uca Allah'ın möcüzəvi xüsusiyyətlərlə yaratdığı dəvələrin südü insanlar üçün şəfa mənbəyidir. Bu şəfalı süddə inək südündən 10 dəfə çox dəmir və 3 dəfə çox C vitamini var. Vitamin və minerallarla zəngin olan dəvə südü yeni zamanda bir çox xəstəlik üçün müalicəvi əhəmiyyətə malikdir. Aparılan tədqiqatlar nəticəsində bu südün diabet xəstələrinin həyat səviyyəsini qaldırdığını, autist xəstələrə müsbət təsir etdiyini, immun sistemini gücləndirdiyini və bu səbəbdən, üzə çıxan xəstəliklərin müalicəsində faydalı olduğu müəyyən edilib. Bütün bunlarla yanaşı, dəvə südü su və qida ehtiyacının çox olduğu səhra şəraitində yaşayan insanlar üçün, əlbəttə, çox əhəmiyyətlidir. Uca Allah dəvələr kimi ətindən, südündən və gücündən faydalandığımız bir çox heyvanı və başqa nemətləri qullarına bəxş etmişdir. Rəbbimizin Quranda xəbər verdiyi kimi, bu canlılar möminləri düşünüb ibrət almağa sövq edir:

**Şübhəsiz ki, mal-qarada da sizin üçün bir ibrət vardır. Biz sizə onların qarınlarındakı ifrazat və qan arasından çıxan, içənlərin boğazından rahat keçən təmiz süd içirdirik. (Nəhl surəsi, 66)**

## Quran möcüzəsi: sapsarı erkək dəvə sürüləri

Elm adamlarının günəşdə baş verən partlayışları tədqiq etməsi bir Quran möcüzəsini də üzə çıxarıb. Tədqiqatlar nəticəsində günəşdən püskürmə ilə yüksələn alovların yanan bir sarayın ətrafını işıqlandırması kimi 4 milyard km2-ə qədər sahəni işıqlandırdığı müəyyən edilib. Üstəlik, bu alovların ikihürgüclü dəvə formasında olduğu görülüb.

Şəkillərdən göründüyü kimi, alovlar dəvə sürülərinə bənzəyir. Elm adamlarının əldə etdiyi bu son məlumatlar Quranda "Mursəlat" surəsinin 32-ci və 33-cü ayələrində belə xəbər verilmişdir:

**Hərəsi hündür imarət həcmində qığılcımlar püskürür. O (qığılcımlar), sanki sarı dəvə sürüləridir. (Mursəlat surəsi, 32-33)**

Elm adamları dövrümüzdə apardıqları tədqiqatlar nəticəsində günəşdən kosmosa püskürən saray kimi nəhəng alovların dəvə sürüsünə bənzədiyini müəyyən ediblər. Lakin bu fakt Qurani-kərimdə əsrlər əvvəl açıqlanmışdır.





# Bir ayə, Bir açıqlama

**... Allah heç kəsin üzərinə Özünün ona verdiyindən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

**... Allah heç kəsin üzərinə Özünün ona verdiyindən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

Quranda bir çox ayədə insanların həm nemətlərlə, həm də sıxıntı və çətinliklərlə qarşılaşacağı xəbər verilir. Allah'a səmimi iman gətirən insan bütün hadisələrin Allah'ın nəzarəti altında və müəyyən etdiyi qədər əsasında baş verdiyinə tam yəqinliklə iman gətirir, uca Allah'ın hər çətinlikdən sonra mütləq asanlıq yaradacağına inanır. Allah ayəsində bu həqiqəti müjdələyir.

Allah sonsuz mərhəməti, şəfqəti və ədaləti ilə yaratdığı hər hadisədə həm asanlıq yaradır, həm də hər insanı gücünə görə imtahan edir. Allah'ın insanlara əmr etdiyi ibadətlər, onları sınamaq üçün yaratdığı çətinliklər, insanların üzərinə qoyduğu məsuliyyətlərin hamısı insanların gücünə görədir. Çünki bütün insanları yoxdan yaradan Rəbbimiz hər insanın nəyə, nə qədər gücü çatdığını ən yaxşı biləndir. Sonsuz ədalət sahibi olan Allah insanı gücü çatdığından artıq yükləməz. Bu, Allah'ın bir vədi, Rəhman və Rəhim isminin təcəllisidir.

Allah'ın inananları imtahan etmək üçün yaratdığı müxtəlif sıxıntı və çətinliklər zamanı möminlər həmişə üstün əxlaq göstərir və başlarına gələn hər şeyin bir qədər üzrə baş verdiyini bilərək rahat yaşayırlar. Həyatlarının hər anının sonsuz mərhəmət sahibi olan Rəbbimizin istədiyi kimi keçdiyini, hər şeyin xeyirlə yaradıldığını bilərək əmin yaşayırlar. Allah'ın yaratdığı şər kimi görünən bütün hadisələri də müsəlmanların xeyrinə döndərəcəyini bilirlər və Allah'ın sözünün mütləq doğru vəd olduğuna qəti inanırlar. Bu, Allah'a tam yəqinliklə inanan və Quranın haqq kitab olduğunu bilən insanların imanıdır. İmanlarındakı bu qətiyyət sayəsində müsəlmanlar dünya həyatında hər an imanın qazandırdığı şövqlə yaşayırlar.

# Mehdiyyət Günəş Kimidir, İnsanlar İsinər, Ancaq Mənbəyini Bilməzlər

Mehdiyyət günəşi insanları necə aydınlandıracaq?

Peyğəmbərimizin (s.ə.v) bu mövzudakı hədisləri hansılardır?

Peyğəmbərimiz (s.ə.v) bir çox hədisində hz. Mehdinin (ə.s) zühurundan əvvəl ictimai pozuntuların və böyük hadisələrin olacağını bildirmişdir. Hicri 1400-cü ilin əvvəlindən (1979-1980) etibarən bu əlamətlər ardıcıl reallaşmağa başlamışdır. Allah'ın açıq-aşkar inkar edildiyi (Allah'ı tənzih edirik), böyük şəhərlərin müharibə və təbii fəlakətlərlə məhv olduğu, zəlzələlərin, qasırğaların artdığı, yoxsulların çoxaldığı, əxlaqi pozuntunun baş verdiyi, haqq dinin və Quran əxlaqının tərk edildiyi, dünyanın hər yerini qarışıqlıq, anarxiya və zülmün bürüdüyü, qadınlar və uşaqların belə öldürüldüyü fitnələrin baş verdiyi, müsəlmanlara təzyiqin artdığı, məscidlərin dağıdıldığı, haramların halal sayıldığı, qısaca desək, qarışıqlığın çox baş verdiyi bu dövr hz. Mehdinin (ə.s) fəaliyyətlərinə başlaması ilə sona çatacaq.

Hz. Mehdi (ə.s) Allah'ın onu insanlardan gizli saxladığı, insanların hz. Mehdinin (ə.s) kim olduğunu bilmədiyi dövrlərdə belə elmi, səmimiliyi, gözəl əxlaqı və Allah'a dərin bağlılığı ilə insanları maarifləndirəcək, onların qəlblərini Allah'a və Quran əxlaqına isindirəcək. Bu mübarək şəxs dünyanın hər yerini günəş kimi işıqlandıracaq, onun vəsiləsi ilə bütün qəm-kədər və zülm sona çatacaq. Allah'ın izni ilə, insanlar mehdiyyət günəşi ilə əxlaqi, elmi və texnoloji sahədəki proseslərə şahid olacaq, bolluq-bərəkət, təhlükəsizlik, ədalət və əmin-amanlığın zövqünü alacaqlar (doğrusunu Allah bilir). Peyğəmbərimiz (s.ə.v) bu mübarək şəxsi və onun vəsilə olduğu gözəl mühiti hədislərində belə müjdələmişdir:

***"BULUDLAR GÜNƏŞİN ÜZÜNÜ ÖRTDÜKDƏ İNSANLAR GÜNƏŞDƏN NECƏ FAYDALANIRSA, ONDAN DA (HZ. MEHDİDƏN (Ə.S) ELƏ FAYDALANACAQLAR".***
*(Yenabiu'ly-Mevedde, səh. 477)*

***"HZ. MEHDİ (Ə.S) BÜTÜN QƏMKƏDƏRİ VƏ ZÜLMƏTİ YOX EDƏN GÜNƏŞDİR. ÇOX BƏRƏKƏTLİ YAĞIŞ KİMİ MAL PAYLAYACAQ". (Muhammed B. Resul El Hüseyin El Berzenci, Kıyamet Alametleri, səh. 188)***

### *UCA ALLAH HZ. MEHDİ (Ə.S) DÖVRÜNDƏ O QƏDƏR ÇOX XEYİR VƏ GÖZƏLLİKLƏR YARADACAQ Kİ, ÖZLƏRİNİ MƏNƏN ÖLÜ HİSS EDƏNLƏR BELƏ YAŞAMAĞI ARZULAYACAQLAR*

Əbu Səid Peyğəmbərin (s.ə.v) belə buyurduğunu rəvayət edir: *"... Daha sonra Allah-təala əhli-beytimdən birini (hz. Mehdini (ə.s)) zülmlə dolan yer üzünü ədalətlə doldurması üçün göndərəcək. Göy üzü və yer üzünün sakinləri ondan (hz. Mehdidən (ə.s)) razı qalacaqlar. Yer üzü bütün bitkilərini onlar üçün bitirəcək və göy üzü daima onlar üçün yağış yağdıracaq... ALLAH-TƏALANIN YER ÜZÜNƏ ENDİRDİYİ BU QƏDƏR XEYRƏ GÖRƏ, ÖLÜLƏR YENİDƏN YAŞAMAĞI ARZULAYACAQLAR". (El-Beyan, s. 72, Es-Sevaik-ul Muhrika, s. 161, Yenabi-ul Mevedde, c.2, səh. 177)*

Peyğəmbərimizdən (s.ə.v) nəql edilən hədislərdə və rəvayətlərdə hz. Mehdinin (ə.s) zühurundan sonrakı dövrdə insanların maddi-mənəvi cəhətdən rifaha qovuşacaqları, tayı-bərabəri görünməmiş əmin-amanlıq və xoşbəxtlik içində yaşayacaqları xəbər verilmişdir. Belə ki, bu mühitin və həyat tərzinin gözəlliyinə görə, mənəvi cəhətdən özünü ölü hiss edən, onsuz da ölü olduğunu deyən və ya xalq arasında çoxdan ölmüş insan kimi tanınan insanlar belə yenidən yaşamağı arzulayacaqlar. Ona görə, hədisdə hz. Mehdinin (ə.s) yaydığı iman işığı və bənzərsiz gözəl həyat vəsiləsi ilə bu cür insanların da canlanacağına, dini cəhətdən qüvvətlənəcəklərinə işarə edilmişdir (doğrusunu Allah bilir).

### *HZ. MEHDİ (Ə.S), ALLAH'IN İZNİ İLƏ, MÜHARİBƏNİ, ZÜLMÜ VƏ TERRORU DAYANDIRACAQ, ONUN DÖVRÜNDƏ DÜNYA SEVGİ İLƏ DOLACAQ*

Hz. Mehdi (ə.s) yer üzündə sevgini hakim edəcək, insanlar kin, qəzəb, nifrət hisslərindən tamamilə əl çəkəcəklər. Hədislərdə hz. Mehdinin (ə.s) vəsilə olduğu sevgi mühitindən dənizdəki balıqlardan göydəki quşlara qədər hər kəsin razı olacağından, bütün insanların qəlblərinə hz. Mehdinin (ə.s) sevgisinin yerləşəcəyindən bəhs edilir. İnsanların hz. Mehdiyə (ə.s) bəslədiyi səmimi sevgi bir-birlərinə də sevgi, şəfqət və mərhəmətlə yanaşmalarına səbəb olacaq.

Hz. Mehdi (ə.s) bir damcı da olsun qan axıtmayacaq, yatan insanı oyatmayacaq.



*"İnsanlar bal arılarının erkəkləri ətrafında toplanması kimi hz. Mehdinin (ə.s) ətrafında toplanacaq. Daha əvvəl zülmlə dolan dünyanı ədalətlə dolduracaq. O qədər ədalətlidir ki, YATAN İNSANI BELƏ OYATMAZ VƏ BİR DAMCI DA QAN AXITMAZ. Dünya sanki əsri-səadət dövrünə girər". (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29, 48)*

*"Düşmənçilik və kini də aradan qaldıracaq... QAB SU İLƏ DOLDUĞU KİMİ, YER ÜZÜ SÜLHLƏ DOLACAQ. Din birliyi də qurulacaq, artıq Allah'dan başqasına sitayiş edilməyəcək. MÜHARİBƏLƏR DƏ DAYANACAQ". (Sünen-i Ibn-i Mace, 10/334)*

Hz. Mehdinin (ə.s) açıq-aşkar zühurundan əvvəl dövrümüzdə oğruluq, saxtakarlıq, fırıldaqçılıq, cinayətlər, zina, özünə qəsd hadisələri çox artmış, rüşvət geniş yayılmışdır. Hz. Mehdinin (ə.s) zühurundan sonra Quran əxlaqının cəmiyyətin hər yerində əsl mənada tətbiq edilməsi ilə ədalət, əmin-amanlıq və təhlükəsizlik hakim olacaq. Ədalətli mühitin nəticəsi olaraq insanlar saxtakarlığa, pisliyə, haram işlərə əl atmayacaqlar. Beləliklə, əmin-amanlıq və təhlükəsizlik təmin olunacaq.

*"Əbu Səid əl-Xudri İslam Peyğəmbərindən (s.ə.v) nəql etmişdir: "Axırzamanda dövrün hakimləri tərəfindən xalqıma tayı-bərabəri olmayan dəhşətli zülmlər veriləcək, zülm o qədər şiddətli olacaq ki, dünya onlara dar gələcək, yer üzü ədalətsizlik və zülmlə dolub-daşacaq, dindar xalqların heç bir sığınacağı qalmayacaq. Məhz həmin zamanda uca Allah mənim nəslimdən birini çıxaracaq, əvvəl ədalətsizlik və zülmlə dolduğu kimi, YER ÜZÜNÜ ƏDALƏT VƏ BƏRABƏRLİKLƏ DOLDURACAQ. DÜNYA ŞƏNLƏNƏCƏK, İLAHİ NEMƏTLƏR YER ÜZÜNƏ ENƏCƏK VƏ BİR NEÇƏ İL BU DÖVRDƏ YAŞAYANLAR: "KAŞ ÖLƏNLƏR HƏYATDA OLUB BU DÖVRÜ GÖRSƏYDİLƏR", - DEYƏCƏKLƏR". (Yenabi-ül Mevedde, s.448; El-Burhan fi Alamet-i Ahir Zaman, Bölüm 2; Muntakhabul Athar, səh. 149)*

Hz. Mehdinin (ə.s) zühurundan əvvəl müxtəlif cinayətlərin artacağını Peyğəmbərimiz (s.ə.v) hədislərində bildirmişdir. Bunun təbii nəticəsi olaraq dövrümüzdə həbsxanalar doludur. Məhkəmələr hər gün insanlarla dolub-daşır. Hz. Mehdi (ə.s) dövründə İslam əxlaqı bütün dünyaya hakim olacağı və insanlar Allah'dan qorxduqları üçün cinayət törətməkdən çəkinəcək, bir-birlərinə pis söz belə deməyəcəklər. Hz. Mehdinin (ə.s) şəfqətli, mərhəmətli, sevgi dolu, ədalətli rəftarı insanlara gözəl nümunə olacaq, ona görə cinayətlərin sayı əhəmiyyətli dərəcədə azalacaq.



*"... YER ÜZÜ ƏMİN-AMANLIQLA DOLACAQ VƏ HƏTTA BİR NEÇƏ QADIN YANLARINDA HEÇ BİR KİŞİ OLMADAN RAHATLIQLA HƏCCƏ GEDƏCƏK". (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

## UCA ALLAH HZ. MEHDİYƏ (Ə.S) BƏNZƏRSİZ ƏDALƏT ANLAYIŞI BƏXŞ EDƏCƏK

**Ey iman gətirənlər! Özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. Varlı və ya kasıb olmasından asılı olmayaraq, Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! Əgər siz danışsanız və ya (həqiqəti deməkdən) boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 132)**

*"Zülm və fasiqliklə dolu olan DÜNYA O, (HZ. MEHDİ) GƏLDİKDƏN SONRA ƏDALƏTLƏ DOLUB-DAŞACAQ". (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 20)*

*"HZ. MEHDİNİN (Ə.S) DÖVRÜNDƏ ƏDALƏT O QƏDƏR BOL OLACAQ Kİ, zorla alınan hər mal sahibinə geri qaytarılacaq". (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

Hz. Mehdi (ə.s) dövründə texnologiya və elmin sirləri insanlara açılacaq, hər sahədə olduğu kimi, kənd təsərrüfatı, heyvandarlıq sahəsində də yeni məhsuldarlıq texnikalarının formalaşdırılması, toxumun məhsuldar-lığının artırılması ilə bağlı işlər görüləcək, yağış sularının su anbarları, süni göllər qurularaq toplanılması ilə məhsuldarlığın artmasına xidmət edən fəaliyyətlər artacaq.

Hz. Mehdi (ə.s) ölkələr arasında rifah səviyyəsini tarazlayacaq. Mal insanlara bərabər paylanacaq. Varlılar və yoxsullar arasındakı ayrı-seçkilik hz. Mehdi (ə.s) dövründə artıq tamamilə aradan qalxacaq. Hz. Mehdi (ə.s) bütün dünyaya bərabərlik və qardaşlıq əhval-ruhiyyəsi gətirəcək.

*Əbu Səid Peyğəmbərimizdən (s.ə.v) nəql edir: "HZ. MEHDİ O QƏDƏR COMƏRD İNSAN OLACAQ Kİ, ONA MÜRACİƏT EDƏRƏK: "MƏNƏ BUNU VER, ONU VER", - DEYƏ YALVARANLARIN ƏTƏKLƏRİNİ DAŞIYA BİLƏCƏKLƏRİ QƏDƏR DOLDURARAQ MAL VERƏCƏK". (Tirmizi, İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, s. 1699, səh. 171)*



# UCA ALLAH'IN RƏNG SƏNƏTİNİN ƏN GÖZƏL TƏCƏLLİLƏRİNDƏN BİRİ: QIZILQAZLAR

- **Qızılqazların çəhrayı rəngi nədən qaynaqlanır?**
- **Töküldükdə belə tüklər rəngini necə qoruyur?**
- **Bəzi qızılqazların daha parlaq rəngdə olmasının səbəbi nədir?**

Parlaq rəngləri ilə diqqət çəkən qızılqazlar uca Allah'ın rəng sənətinin ən gözəl nümunələrindən biridir. Bu quşlardakı zəngin rəng müxtəlifliyi tüklərinin içində yerləşən, tük əmələ gəlməyə başladıqda toplanan piqmentlərdən və ya tüklərin quruluşu ilə əlaqədar işıq hərəkətlərindən asılı olaraq meydana gəlir. Bu rəngarəng tüklərin ən əsas xüsusiyyətlərindən biri cansız olmalarıdır.

Bir tükün cansız olması qopan tükün rəngini qorumasının əsl səbəbidir. Keratin maddəsindən təşkil olunmuş tüklər xarici amillərin təsiri ilə qısa müddətdə xarab olduqlarına görə, müəyyən vaxtlarda yenilənirlər. Ancaq quşlar hər dəfə rəngarəng tüklərinə yenidən qovuşurlar. Çünki quşların tükləri lazımi uzunluğu, rəngi və naxışları əmələ gələnə qədər inkişaf edirlər.

## Qızılqazların rəngi necə əmələ gəlir?

Tüklər fərqli quruluşlarda olduğuna görə, eynilə şüşə prizma kimi işığı müxtəlif rənglərdə əks etdirirlər. İşığın sınması ilə meydana gələn rənglər piqmentlə rənglənmiş tüklərdən daha canlı və metallik olurlar. Bu tüklərin rəngləri mavidən yaşıla, narıncıdan qırmızıya qədər dəyişir.

Quşlardakı yaşıl, mavi və metallik rənglər, əsasən, işığın əks olunması və sınması nəticəsində əmələ gəlir. Ancaq bəzi rənglər piqmentlərdən qaynaqlanır. Bunlar qara, qəhvəyi və ya donuq sarı rəng verən melanin piqmenti, qırmızı, sarı və narıncı rəng verən karotinoid piqmentidir. Karotinoidlər portağal, pomidor və yerkökü kimi qidalarda, bir çox çiçəkdə, bakteriyalarda, göbələklərdə və yosunlarda var. Dəniz yosunundan ildə təxminən 100 milyon ton karotinoid əldə edilir. Bəzi heyvanlar rənglərini karotinoidlərdən alır. Xüsusilə quşların (sarı və qırmızı tüklü quşlar), balıqların (dabanbalığı və qızılbalıq) və bir çox onurğasız heyvanın rəngi karotinoid-zülal birləşməsinə görə mavi, yaşıl və çəhrayı olur.

Qızılqazların qırmızımtıl-çəhrayı rəngi də karotinoidlərdən qaynaqlanır. Qızılqazın parlaq çəhrayı rənginin səbəbi qidasıdır. Daha çox karotinoid tərkibli qida yedikdə tükləri daha parlaq və tünd çəhrayı rəng alır. Qızılqazların insana zövq verən gözəl rənglərinin mənbəyi məhz budur. Bütün aləmlərin Rəbbi olan uca Allah qızılqazlarda yaratdığı bənzərsiz rəng sənəti ilə bizə Özünü tanıdır və yaratdığı xüsusi sistemlərlə bu canlıların rənglərini qorumasını təmin edir:

*Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri, eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər kor olar. (Həcc surəsi, 46)*



## Qızılqazların rəngi necə qorunur?

Qızılqazların rənglərinin əmələ gəlməsinə və qorunmasına yedikləri krevetka və su yosunları təsir edir. Mavi-yaşıl yosunlar adlarından fərqli olaraq qırmızı, bənövşəyi, qəhvəyi, sarı, hətta narıncı rənglərdə olurlar. Qızılqazlar bu kiçik yosun və krevetkaları uca Allah'ın onlara bəxş etdiyi dimdikləri ilə asanlıqla tutub yeyirlər. Çünki dimdik suyun içindəki qabıqlı canlıları və yosunları süzərək yeməyə uyğun yaradılmışdır. Üst və alt çənələrdə və dildə keratin lövhələr yerləşir. Üst dimdik alt dimdikdən kiçikdir və üstündə qapaq kimi oturur. Dimdik bağlandıqda hər tərəfdə bərabər aralıq saxlayaraq filtr xüsusiyyəti daşıyır. Qızılqazlar bu dimdik quruluşu ilə yemlərini balina və dəniz ilbizi kimi süzgəcdən süzürlər. Dimdiklərində sıra ilə yerləşmiş lövhələr yemin suyunu süzür. Kiçik qızılqazlarda bu lövhələrin qalınlığı təqribən 0.05 mm olub təkhüceyrəli bitkiləri belə süzür. Şübhəsiz ki, qızılqaz balalarının təkhüceyrəliləri yemək üçün dimdik quruluşuna malik olmaları uca Rəbbimizin balalar üzərindəki şəfqət və mərhəmətinin təcəllisidir. Çünki sürətlə böyüməli olan bala hər qidadan faydalanmalıdır. Bundan əlavə, qızılqazların dilləri də suyu saniyədə dörd dəfə dimdiyindən keçirən nasos kimi işləyərək bu canlının suyu süzüb qidanı yeməsinə uyğun yaradılmışdır. Uca Rəbbimiz sonsuz elmi ilə kainatı və içindəki hər təfərrüatı yoxdan yaratmışdır. Qızılqazların bu xüsusiyyəti də hər şeyi uca Allah'ın yaratdığını sübut edir. Bu həqiqət bir ayədə belə xəbər verilmişdir:

*Allah hər heyvanı sudan yaratmışdır. Onların bəzisi qarnı üstə sürünür, bəzisi iki, bəzisi isə dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Həqiqətən, Allah hər şeyə qadirdir! (Nur surəsi, 45)*

## Qızılqazların nəslinin davam etməsində tüklərinin rəngi mühüm rol oynayır

Quşların rənglərinin yaşadıqları mühitə uyğunlaşma, günəş şüalarından istilik toplama və zərərli ultrabənövşəyi şüaların orqanizmə daxil olmasının qarşısını alma kimi xüsusiyyətləri var. Bundan əlavə, qarşı cinslərin bir-birini tanıması və cəlb etməsində də mühüm rol oynayır. Quşların cütləşmək üçün qarşı cinsi cəlb edərkən ifraz etdikləri hormonlar tüklərinin formasının və rənglərinin fərqli olmasına səbəb olur. Bu yaradılış xüsusiyyəti qızılqazların rənginin cütləşmə dövründə daha da tündləşməsini təmin edir.



İspan elm adamlarının "Behavioral Ecology and Sociobiology" adlı jurnalda dərc olunan tədqiqatına əsasən, quşların quyruqlarının yanındakı vəzdən karotinoid piqmenti ifraz olunur. Quş cütləşmək üçün yaxınlaşdıqda yanaqlarını bu vəzə sürtür və piqmenti boynuna, sinəsinə və arxa tüklərinə sürtərək sanki makiyaj edir və çəhrayılığını artırır. Bunu çox edərsə, tüklərinin rəngi daha uzun müddət tünd çəhrayı rəngini qoruyar. Qarşı cinsi tapdıqda isə makiyaj edərək tüklərinin rəngini tündləşdirməyi dayandırır. Çünki bu proses çox vaxt və enerji tələb edir.

### Qızılqazların rəngləri uca Allah'ın Müzəyyin (bəzəyən) isminin təcəllisidir

Canlılardakı təfərrüatlı və ahəngdar sistemin təsadüfən meydana gəldiyini iddia etmək olmaz. Bu ahəngdarlığı ən mükəmməl şəkildə canlıların orqanizmində və yaşadıqları mühitdə yerləşdirən bir iradə və qüvvə mütləq var. Bu gücün sahibi üstün biliyi ilə həm mühiti, həm canlını, həm də malik olduğu sistemləri əhatə edən uca Allah'dır. Bu fakt qızılqazların rənglərinin təsadüfən əmələ gəlməsinin qeyri-mümkün olduğunu bir daha sübut edir. Çünki quş bu rəngi əldə etmək üçün heç bir səy göstərmir. O, ancaq uca Allah'ın ilham etdiyi hərəkətləri edərək həyatını davam etdirir, qidalanır, nəslini artırır. Ona görə, tüklərinin rəngini, formasını və bu rəngi əldə etmək üçün nə etməli olduğunu bilmir.

Uca Allah yoxdan yaratma elmini qullarına bir daha göstərmək, yaratdığı sistemlərdəki üstün ağıl tələb edən təfərrüatları xatırlatmaq və dünyanı müxtəlif rəng və formalarla bəzəyərək bəxş etdiyi gözəllikləri göstərmək üçün qızılqazlar üzərində təcəlli edir. Allah üstün qüvvət sahibi olan yaradanımızdır. Quranda bu həqiqət belə xəbər verilir:

Məgər Allah'ın göydən bir yağmur yağdırdığını görmürsənmi?! Sonra Biz onunla müxtəlif rəngli meyvələr yetişdirdik və dağlarda müxtəlif rəngli – ağ, qırmızı, tünd qara yollar peyda etdik. İnsanların, heyvanların və davarların da bu cür müxtəlif rəngləri vardır. Allah'dan Öz bəndələri içərisində ancaq alimlər qorxar. Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, bağışlayandır! (Fatir surəsi, 27-28)

*Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. Bir işin yaranmasını istədiyi zaman, ona (o işə) yalnız: "Ol !" –deyər, o da (fövrən) olar. (Bəqərə surəsi, 117)*



Qızılqazların həyat tərzlərinə uyğun yaradılmış uzun nazik qıçları, pərdəli ayaqları, qidalanmalarına kömək edən dimdikləri, möhtəşəm çalarlara malik çəhrayı tükləri uca Allah'ın "Bədi" (yoxdan yaradan) isminin ən gözəl təcəllilərindəndir.

## Qızılqazlarda uca Allah'ın üstün yaratmasının bir çox təcəllisi var

Qızılqazlar yumurtalarını palçıqdan tikilmiş çanaq formalı hündür yuvalara qoyurlar. Koloniya şəklində kürt yatırlar. İldə ancaq bir dəfə, əsasən, bir ədəd yumurtlayırlar. Növbəli şəkildə həm erkək, həm dişi qızılqaz kürt yatır və balanın qayğısına qalır.

Bala qızılqazlar yumurtadan çıxdıqdan sonra böyük dəstələr halında yaşayırlar. Bala qızılqaza ancaq onu səsindən tanıyan valideynləri qida verir. Ana və ata qızılqazın hər ikisinin boğazında çox qidalı parlaq qırmızı rəngli süd ifraz olunur. Balalar ilk iki ayda bu süddə qidalanırlar.

## Qızılqazlar tək ayaq üstündə yatır və bədənlərinin bir tərəfi yuxulayarkən digər tərəfi yırtıcılara qarşı ayıq-sayıq olur

Digər heyvanların su içə bilmədiyi qədər duzlu və sodalı, heç nəyin bitmədiyi və yaşamaq üçün əlverişsiz göllərdə yaşayırlar.

Gözəl rəngləri və uzun boyları ilə diqqət çəkən qızılqazlar, eyni zamanda, yaxşı üzgüçüdürlər. Qızılqazların pərdəli ayaqları üzmələrinə kömək edir. Pərdəli ayaqların yastı, enli olması qızılqazların yumşaq palçığın üzərində belə batmadan asanlıqla yeriməsini təmin edir. Bundan əlavə, barmaqların arasındakı pərdələr quşun suyu itələməsi üçün ayaq səthini genişləndirir.

Gördüyümüz kimi, qızılqazları yaşamaq və nəsillərini davam etdirmək üçün bütün lazımi sistemlərlə birlikdə uca Allah yaratmışdır.

*Həqiqətən, göylərdə və yerdə möminlər üçün dəlillər vardır! Sizin yaradılışınızda və (Allah'ın yer üzünə) yayıb səpələdiyi canlılarda tam yəqinliklə inananlar üçün dəlillər vardır. (Casiyə surəsi, 3-4)*

# İslamı Təbliğ Etmə Şövqü İnsanı Ruhlandırır



*Möminlər nə üçün şövqlə İslamı təbliğ etmək istəyirlər? Möminlərin şövqünün daimi olmasının səbəbi nədir?*

Allah möminlər arasında insanları yaxşılığa, xeyirə çağıran camaat olmasını əmr etmişdir:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali-İmran surəsi, 104)**

Əməlisaleh müsəlmanlar Allah'ın bu ayəsinə əsasən, insanlara Quran əxlaqını və bu əxlaqa uyğun olmayan həyatın yanlışlığını izah etməyə və onları Allah'ın dininə yönəltməyə çalışırlar. Özləri dinə uyğun gözəl əxlaqla yaşadıqlarına və bunun insanlara necə rahat həyat qazandırdığını bildiklərinə görə, insanların da belə rahat və gözəl yaşamasını istəyirlər. Habelə, cəhənnəmin nə qədər qəti həqiqət olduğunu dərk etdikləri üçün bütün insanların Allah'ın razı qaldığı həyatı yaşayaraq cəhənnəmdəki sonsuz əzabdan qorunmalarını istəyirlər.



Onlar üçün bircə insanın belə doğrunu görməsi çox vacibdir. Çünki bu insanın dünyadakı əməllərinin qarşılığı olaraq cənnət və ya cəhənnəm həyatı var. Ona görə, bircə insanın belə cəhənnəmdən xilas olub Allah'ın rəhmətinə qovuşması üçün hər cür fədakarlıqdan keçirlər. Lazım gəldikdə aylarını, illərini, gecə-gündüz bu insanın din əxlaqına yönəlməsi üçün sərf edərlər. Eyni şəkildə, bircə insanın axirəti üçün bütün maddi imkanlarını böyük şövq və istəklə xərcləyərlər. Bu şövqləri onlara həm fiziki, həm də mənəvi güc qazandırır. Həyatlarının sonuna qədər Allah'ın dinini ən gözəl şəkildə, hikmətlə təbliğ edərlər. Ancaq bunu da qeyd etmək lazımdır ki, bütün bu səylərinə baxmayaraq, bircə nəfər də hidayət tapmasa, möminlər yenə də şövqlə təbliğlərinə davam edərlər. Çünki onların məsuliyyəti ancaq din əxlaqını təbliğ etməkdir. İnsanlara hidayət verən Allah'dır. Quranda Peyğəmbərimizin (s.ə.v) ixlaslı cəhdinə baxmayaraq, Məkkə müşriklərindən çoxunun iman gətirmədiyi və Allah'ın "Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri daha yaxşı O bilir!" (Qəsəs surəsi, 56) ayəsi ilə Peyğəmbərimizə (s.ə.v) bunu xatırlatdığı bildirilir.

## *Möminlərin şövqü "mənfəətə bağlı şövq" anlayışından çox fərqlidir*

İman gətirənlərin şövqü Allah'a olan sevgilərindən və bağlılıqlarından qaynaqlanır. Onlar din əxlaqı ilə yaşamayan insanlar kimi dünyanı deyil, özlərini yoxdan yaradan, ruzi verən, yaşadan, sonsuz mərhəmət və şəfqət sahibi Allah'ı sevirlər.

Bunun ən əsas səbəbi isə möminlərin hadisələri açıq şüurla dəyərləndirməsidir. Onlara həyat verənin, hər an yer üzündəki bütün canlı və cansız varlıqları qoruyanın Allah olduğunu və Ondan başqa bütün varlıqların Ona möhtac olduğunu dərk edirlər.

Allah'a sevgi və bağlılıqlarının nəticəsi olaraq həyatları boyu Allah'ı razı etmək üçün səy göstərirlər. Allah'ın razılığını qazanmaq istəyi möminlərin ən əsas şövq və sevinc mənbəyidir. Allah'ın rizasını qazanmaq və Allah'ın möminlər üçün hazırladığı cənnətə qovuşmaq arzusu onlara tükənməz mənəvi güc, şövq və sevinc qazandırır.

Din əxlaqı ilə yaşamayan insanlar isə şəxsi mənfəətləri olduqda çox şövqlü olurlar. Ancaq mənfəətlərinə zidd vəziyyət meydana gəldikdə şövqlərini tamamilə itirirlər. Allah'a







və axirətə səmimi iman gətirmədiklərinə görə, belə anlarda dinin bir çox hökmünü unudurlar. Allah'ın dünya həyatını imtahan mühiti kimi yaratdığını, insanı xeyir və şər kimi görünən hadisələrlə sınayacağını və ancaq səbir edənləri mükafatlandıracağını düşünmürlər. Qəlblərində xəstəlik olduğuna görə (Allah'ı tənzih edirik), Allah'ın köməyindən şübhəyə düşürlər. Allah'a güvənmək əvəzinə ümidsizliyə və Allah haqqında şübhələrə qapılırlar. Beləliklə, qəlblərində gizlətməyə çalışdıqları xəstəlik danışıqlarına əks olunur. Quranda bu insanların belə vəziyyətlərdə şövqlərini bir anda itirib Allah'ın vədindən şübhəyə düşmələrinə belə misal çəkilmişdir:

**O zaman münafiqlər və qəlblərində mərəz (şəkk) olanlar: "Allah və Onun peyğəmbəri bizə yalan vəd etmişdir", – deyirdilər. (Əhzab surəsi, 12)**

Əlbəttə, bu davranış qəlblərindəki imanın sağlam olmamasından qaynaqlanır. Bu insanlar qarşılaşdıqları hər şeyin imtahan olaraq yaradıldığını və imtahana göstərdikləri reaksiya ilə iman gətirənlərlə qəlblərində xəstəlik olanların ayırd edildiyini dərk etmirlər. Qəlbdən iman gətirmiş möminlər isə hər şəraitdə Allah'a tam yəqinliklə iman gətirdiklərinə və Allah'ın köməyinin çox yaxın olduğunu bildiklərinə görə rahat və şövqlüdürlər.

## *Möminin şövqünün mənbəyi nədir?*

**Möminlər yalnız Allah'a və Peyğəmbərinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə vuruşanlardır! Məhz belələri sadiq olanlardır! (Hucurat surəsi, 15)**

Yuxarıdakı ayədə də xəbər verildiyi kimi, Allah Quranda möminləri iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşmədən Allah yolunda malları və canları ilə cəhd edənlər kimi tərif edir. Möminlərin bu xüsusiyyəti, şübhəsiz ki, onların qəlbindəki şövqü üzə çıxarır. Çünki bütün maneələrə baxmayaraq, bir ömür boyu, heç bir şübhəyə düşmədən inandıqları dəyərlər uğrunda cəhd etmələri ancaq imanın qazandırdığı şövqlə mümkündür.



Möminlərin şövqünü bu qədər ayaqda tutan başqa səbəb də onların **“...Ona (Allah’a) həm qorxu, həm də ümidlə dua edin. Həqiqətən, Allah’ın mərhəməti yaxşılıq edənlərə çox yaxındır!” (Əraf surəsi, 56)** ayəsində bildirildiyi kimi, həyatlarının sonuna qədər qorxu və ümid arasında yaşamalarıdır. Qorxu və ümid arasında yaşamaq budur: iman gətirənlər Allah’ın onlardan razı olub-olmadığına və cənnətə layiq əxlaqla davranıb-davranmadıqlarına heç vaxt tam əmin olmazlar. Odur ki, məhşər günündə Allah’ın əzabı ilə qarşılaşmaqdan çəkinir və daima əxlaqlarını gözəlləşdirmək üçün səy göstərirlər. Eyni zamanda, Allah’ın rizasını, sevgisini qazanmaq üçün əllərindən gələni etdiklərini vicdanən bilirlər. Ona görə də sonsuz mərhəmət sahibi olan Allah’ın rəhmətinə və cənnətinə qovuşacaqlarına ümid bəsləyirlər. Bu iki hissi, yəni qorxu və ümidi eyni anda keçirdiklərinə görə, heç vaxt etdikləri saleh əməlləri kafi hesab etməz, özlərini xətalardan, nöqsanlardan uzaq görməzlər. **“...Rəblərindən qorxur və pis haqq-hesabdan çəkinirlər” (Rad surəsi, 21)** ayəsi ilə də bildirildiyi kimi, hər an Allah’ın əzabından çəkinirlər. Allah’ın dininə şövqlə sarılır, ciddi səy göstərirlər. Allah qorxusu onları ümidsizliyə və ya tənbəlliyə qapılmaqdan qəti çəkindirir və şövqlərini daima qaldırır. Allah’ın iman gətirib yaxşı işlər görənləri cənnətlə müjdələdiyini bilmək də onları hərəkətə gətirir və ruhlandırır. Bu tükənməz şövqlərinin əvəzində Allah’ın inananlara vəd verdiyi müjdə belədir:

**Möminlərə müjdə ver ki, onlara Allah tərəfindən böyük bir lütf nəsib olacaqdır. (Əhzab surəsi, 47)**







### *Möminlər ibadətlərində də şövqlü və qətiyyətlidirlər*

İmanlı insan ibadətlərini diqqətlə, cidd-cəhdlə və şövqlə yerinə yetirməsi ilə özünü bəlli edir. Uca Rəbbimiz Allah'ın fərz etdiyi beş vaxt namaz, dəstəmaz və oruc kimi bütün ibadətlərini həyatı boyu şövqlə davam etdirir. İbn Ömərdən (r.ə) rəvayət edildiyinə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur:

İslamın bünövrəsi beş təməl üzərində qoyulub: Allah'dan başqa ilah olmadığına və Muhəmmədin (s.ə.v) Allah'ın Rəsulu olduğuna şahidlik etmək, namazı doğru qılmaq, zəkatı layiqincə vermək, Allah'ın evi Kəbəni həcc etmək və Ramazan orucunu tutmaq. (Buharî, Îman 1, 2, Tefsîru sûre(2) 30; Müslim, Îman 19-22. Ayrıca bk. Tirmizî, Îman 3; Nesaî, Îman 13)

Möminlərin şövqü din əxlaqı ilə yaşamayan insanların şövq anlayışından fərqlidir. Onların müvəqqəti şövqündən fərqli olaraq möminlərinki Allah inancına əsaslanan daimi coşqunluqdur.

### *Quranda bütün peyğəmbərlərin böyük şövqlə təbliğ etdiklərinə diqqət çəkilmişdir*

Peyğəmbərlərin hər biri insanlara təbliğ edərkən müxtəlif çətinliklərlə qarşılaşdıqları halda, əsla ümidsizliyə düşməyiblər. Əksinə, qövmlərinə doğrunu göstərmək üçün hər yola əl atıblar. Quranda hz. Nuhun (ə.s) bu ixlaslı cəhdinə belə diqqət çəkilmişdir:

**O dedi: "Ey Rəbbim! Mən qövmümü gecə-gündüz dəvət etdim! Lakin dəvətim onların qaçmalarını daha da artırmaqdan başqa bir şeyə yaramadı. Sənin onları bağışlamağın üçün mən nə zaman onları dəvət etdimsə, onlar barmaqlarını qulaqlarına tıxadılar, libaslarına büründülər, israr**



**edib durdular və təkəbbür göstərdilər. Sonra mən onları aşkarcasına dəvət etdim. Daha sonra onlara aşkar söylədim və gizli bildirdim". Və dedim: "Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O, çox bağışlayandır!" (Nuh surəsi, 5-10)**

Ayələrdə bildirildiyi kimi, hz. Nuh (ə.s) qövmünün qəlbini imana isindirmək üçün şövqlə din əxlaqını təbliğ etmişdir. Gecə-gündüz Allah'ın böyüklüyündən bəhs etmişdir. Onlar isə hər dəfə haqqı eşitdikdə inadkarlıqla təbliğdən üz çevirmişlər. Hz. Nuh (ə.s) Allah'ın əmrini yerinə yetirməkdə və din əxlaqını təbliğ etməkdə şövqlü olduğuna görə, onların bu davranışından təsirlənməmiş, qətiyyətlə vəzifəsinə davam etmişdir. Təkəbbürlərinə baxmayaraq, onlara imanı sevdirməyin yollarını axtarmışdır. Bəzən açıq-aşkar, bəzən gizli yollarla Allah'ın varlığından bəhs edərək onları din əxlaqından uzaq sistemdən xilas etmək istəmişdir. Ancaq unutmaq olmaz ki, hz. Nuh (ə.s) və onun kimi böyük şövq və ixlasla Allah'ın dinini təbliğ edənlər sərf etdikləri hər sözün, hər cəhdin mükafatını - Allah'ın izni ilə - ən gözəl şəkildə alacaqlar. Çünki Allah **"Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allah'ın hüdudlarını qoruyan möminləri müjdələ" (Tövbə surəsi, 112)** ayəsində də bildirdiyi kimi, insanlara yaxşı işlər görməyi əmr edib pis işlərdən çəkindirənləri rəhməti ilə müjdələmişdir





# TƏKAMÜL NƏZƏRİYYƏSİNİN MƏKTƏB TERRORLARINDA ROLU

Son illərdə Avropa və ABŞ məktəblərində baş verən silahlı terror hadisələrində çoxlu sayda şagird qətlə yetirilmişdir. KİV çox vaxt bu qırğınları depressiv və ya sosiopat davranışlı (anti-sosial şəxsiyyət pozuntusu) olan insanların əməli kimi tanıdıb. Ancaq diqqətlə təhlil etdikdə bu qırğınların ardınca başqa amil də nəzərə çarpır: həyatın güclü ilə zəifin mübarizəsi olduğunu iddia edən təkamül nəzəriyyəsi.

Amerika Birləşmiş Ştatlarının Kolorado ştatında Kolumbayn liseyinin sonuncu sinif şagirdləri Erik Harris və Dilan Kliboldun 20 aprel 1999-cu ildə birlikdə məktəbə etdikləri silahlı hücumda 13 nəfəri qətlə yetirmiş və daha sonra intihar etmişlər. Bir qəzet verdiyi xəbərdə "Kolumbayn Liseyinə hücum edərək 13 yoldaşını qətlə yetirən Erik Harris və Dilan Kliboldun Darvinin təbii seçmə nəzəriyyəsindən təsirləndiyi məlum olub" cümləsi ilə bu terrorun səbəbini açıqlamışdır.

Erik Harris hücum zamanı bu zorakılıq hərəkətinin mənbəyini bəlli edən futbolka geyinmişdi. Futbolkasının üstündə "təbii seçmə" yazılmışdı. Qırğını törədənlər videolarında təkamül nəzəriyyəsindəki təbii seçmə və zəiflərin aradan çıxarılması fikrindən təsirləndiklərini deyirdilər. Terrorda 13 yaşlı qızı Reyçılı itirən, oğlu Kreqi çətinliklə xilas edən Darel Skot bu hadisəni belə danışır:

"Qırğının arxa planına baxılmaması çox təəccüblüdür. Qatil Harris tələbələrə atəş açarkən üstündə "təbii seçmə" yazılmış futbolka geyinmişdi. Zəifləri öldürərək təbii seçməyə kömək etdiklərini etiraf etdikləri video da üzə çıxıb. Özlərini təbii seçmənin nəticəsi olaraq sinif yoldaşlarından üstün görürdülər".

Harris insanları və bitkiləri peyvənd etməyin təbiətin lazımsız otları təmizləmə prosesinə müdaxilə etmək olduğunu deyən darvinistdir. Hətta təhlükəli qidaların üstündə belə xəbərdarlıq etiketlərinin olmamasını istəmiş: "Təbii seçmənin öhdəsinə buraxaq, bütün kök, çirkin, şikəst, topal, axmaqlar ölər və bəlkə, bu yolla bəşəriyyət özü ilə fəxr edə bilər", - demişdir.

Kolumbaynda öldürülən altı uşağın ailəsinə vəkillik edən Barri Arrinqton Erik Harrisin Darvinə nə qədər bağlı olduğundan belə bəhs edir:

"Erik Harrisin bütün gündəliklərini oxudum, bütün səs kasetlərini dinlədim, video kasetlərinə baxdım. Başa düşdüm ki, Harris şüurlu şəkildə öz davranışlarını təkamül haqqında öyrəndiklərinin məntiqli nəticəsi hesab edirdi. Darvinizm onun əməllərinin intellektual əsası idi. Harrisin Darvinə sitayiş edən birisi olduğuna və özünü onun prinsiplərini tətbiq edən biri hesab etdiyinə heç şübhə yoxdur".

Psixiatriya mütəxəssisi dr. Kubilay Boğoçlu "Psikiyatri ve Hayat" adlı internet saytında Kolumbayn liseyində baş verən terrorun təfərrüatlarına və cinayətkarların psixoloji analizlərinə yer vermişdir. Boğoçlu saytda qırğını törədənlərin ilk qurbanının xüsusi seçildiyini vurğulamışdır. Onların ilk qurbanı qız tələbə Reyçıl Skot idi. Reyçılın atası rahib idi və Reyçıl xristian kimi tərbiyə edilmişdi. Məsələn, məktəbdə oynadığı

bir səhnəciyin adı "Quzuları qorumaq" idi. Klibold bu layihə haqqında layihənin hazırlanmasında Reyçıla kömək etdiyi üçün bilirdi. Yəni ilk qurban din adamının qızı idi və zəiflərin qorunmasını izah edən səhnəcik hazırlamışdı.

Halbuki, Harris və Klibold özlərini üstün, güclü canlılar hesab edir, zəifləri məhv etməli olduqlarına inanırdılar. Harris zəifləri aradan qaldırmaq yolu ilə təbii seçmə prosesini izah etdiyi bir videoda təkamül keçirərək sinif yoldaşlarından daha üstün səviyyəyə çatdıqlarını açıq-aşkar demişdi.

Harris darvinist yanaşma tərzini internetdə yayımladığı bir videosunda belə ifadə edirdi:

"Yaxında gələcəyəm. Hamı üçün gələcəyəm. Dişlərimə qədər silahlanacağam, hər şeyi, hər kəsi öldürəcəyəm. Qanunları mən qoyacağam (qanun mənəm). Bu qanunları bəyənməsən, öləcəksən! Əgər səndən və məndən istədiyin şeydən xoşum gəlməsə, səni öldürərəm. Mənim sizinlə problemləri həll etmə yolum budur – öldürmək!"

Təkamül nəzəriyyəsinin həyatın guya müharibə meydanı, fiziki qüvvə tətbiq edərək üstünlük əldə etməyin dətəbiətin qanunu olduğu kimi təcavüzkarlığa və əxlaqi degenerasiyaya təşviq edən məntiqinin son dövrdə məktəblərdə meydana gələn qeyri-əxlaqi cərəyanlara və zorakılıq hadisələrinə təşviq etdiyi inkaredilməz faktdır.

Qırğın törədənlər özlərini müharibə meydanındakı ordu əsgəri hesab edirlər. Yanlış düşüncə tərzlərinə görə təbiətdə mübarizə gedirsə, zəif hesab etdikləri insanları öldürmələri bir şirin bir ceyranı öldürməsi qədər təbiidir. Bir şirin ceyranı öldürməsinə təəccüblənmir, mühakimə etmirlərsə, onları da mühakimə etməməlidirlər. Çünki onlar da Darvinin nəzəriyyəsindəki şirlər kimi təbiətdəki təbii seçmə prosesinin tələbinə uyğun davranırlar. 2007-ci ildə Pensilvaniyada məktəbdə qırğın törətməyə hazırlaşarkən tutulan bir tələbənin də "Natural Selection's Army" (Təbii seçmə ordusu) adlı bir internet səhifəsinə tez-tez daxil olmasının aşkar edilməsi bu batil düşüncə tərzinin terror hadisələrində mühüm amil olduğunu üzə çıxarmışdır. Habelə, bu saytın istifadəçiləri "qatillər üçün kiber-məktəb" adlandırılan bir çox forumlarda da iştirak edirdilər. Bu saytlar polis tərəfindən üzə çıxarıldıqda dərhal server tərəfindən bağlandı. Ancaq bu gün hələ də birçox gənc ani, ifrat vəhşiliyi Darvinin dövrü ilə əlaqələndirən kompyuter oyunu oynamaqda davam edir. Rəqib tərəflərin bir-birlərini öldürməyə çalışdığı bu məşhur kompyuter oyununun adı "təbii seçmə"dir. Qəhrəmanları Harris və Klibold olan bu oyunda Kolumbayn qırğınlarının orijinal görüntülərindən istifadə edilir.

KİV-ə verilən məlumatlara əsasən, "Təbii seçmə ordusu" saytına tez-tez daxil olanlardan biri də 18 yaşlı finlandiyalı şagird Pekka Erik Auvinendir. Auvinen 7 noyabr 2007-ci ildə Tuusula şəhərindəki Yokela liseyinə etdiyi silahlı hücumda 6 şagirdi və 2 məktəb nümayəndəsini öldürmüş və sonra özü də intihar etmişdi.

"Nəzəriyyədən ilham aldım" başlıqlı qəzet xəbərində Auvinenin törətdiyi qırğının ardındakı səbəb belə izah edilmişdir:

"Finlandiyada 7 noyabr 2007-ci ildə oxuduğu məktəbə silahla hücum edən 18 yaşlı şagird Pekka Erik Auvinen






müəllimini dizi üstə çökməyə məcbur etdikdən sonra vurub öldürdü. Səkkiz sinif yoldaşını da qətlə yetirən Auvinenin də Darvinin təkamül nəzəriyyəsindən ilham alaraq qurulan "Təbii seçmə ordusu" adlı internet saytının istifadəçilərindən olduğu üzə çıxdı. Auvinen sonradan Darvinin nəzəriyyəsindən ilham alaraq qətliam törətdiyini etiraf edib".

Pekka Erik Auvinen qırğından əvvəl internetdə özünə bəraətnamə hazırlamışdı. Auvinen bu nitqində özünü sosial darvinist adlandırır, təbii seçmənin artıq işləmədiyini və hətta tərsinə işlədiyini deyirdi. Ağılsız, zəif, axmaq insanların zəkalı, güclü, ağıllı insanlardan daha sürətlə çoxaldığından bəhs edirdi. Əgər cəmiyyət ikinci tip insanların həyatda qalmasını təmin etməsə, gen hovuzunun pozulacağına əmin idi. Bu problemi həll etməyə çalışırdı. Nəhayət həyatın sadəcə mənasız təsadüflər və uzun kortəbii mutasiyalardan ibarət olduğunu və bir şey etməyin faydasız olduğunu düşündü. Lakin son anda təbiətin mərhəmətsizliyini təqlid edərək təbii seçici kimi öz öhdəsinə düşəni etməyi qərara aldı.

Auvinen bu qərarını belə əsaslandırırdı:

"Yer üzündəki murdarlara mərhəmət yoxdur. İnsan sevgisinə həddindən artıq dəyər verilir. Güclünün həyatını davam etdirməsini təmin etməli və təbii seçməni yenidən işə salmalıyıq".

18 yaşlı Auvinen qırğından əvvəl müxtəlif istifadəçi adları ilə bir çox video yayımlamışdı. Videolar bədbin, aqressiv fon musiqisi olan vəhşilik səhnələrindən ibarət idi. Belə bir qanlı qırğın törədən birisinin zorakılığa meyilli olması, şübhəsiz ki, kimsəni təəccübləndirməz. Ancaq videolardan biri bu vəhşiliyin arxa planını göstərməsi baxımından diqqət çəkirdi. Auvinen saytlardan birində "Hamınızı öldürəcəyəm 667" (I'm gonna Kill You All 667) istifadəçi adı ilə yüklədiyi "Mənim fəlsəfəm" adlı videoda bu qırğını təbii seçmənin tələbi kimi törətdiyindən bəhs edirdi.

Təbii seçmə Çarlz Darvinin təkamülün əsaslarından biri kimi göstərdiyi anlayışdır vəhəyat uğrunda mübarizə aparan heyvanlar arasında güclülərin zəifləri məhv etməsini ifadə edir. Heç bir elmi tapıntıya əsaslanmayan təbii seçmə anlayışı istər insanı şüursuz təbiət hadisələrinin məhsulu kimi təsvir etməsi, istərsə də zorakılığa əsaslandığına görə, həm ateist ideologiyaların, həm də zorakılıq tərəfdarı cərəyan və hərəkatların əsasına çevrilmişdir. İkinci Dünya Müharibəsində milyonlarla insanı ölümə göndərən diktatorlar müharibəni təbii seçmənin tələbi hesab etmiş, təbliğatlarında darvinizmə əsaslanmışlar.

Beləliklə, "təbii seçmə" Yokela liseyi qırğınında da qarşımıza çıxır. Auvinen "Mənim fəlsəfəm" videosunda təbii seçməni həyata keçirməyə çağırır. Videoda üstündə "İnsanlar dəyərsizdir" yazılmış futbolka geyinmiş Auvinen darvinizmin insana münasibətini göstərən bu cümlələri deyirdi: "Mən ancaq təbii seçməyə inanan normal anarxistəm. İnsanlar təbii seçməni yenidən işə salmalıdırlar. Heyvanlar bu cür yaşayır, insanlar niyə elə yaşamasın? Biz də sadəcə

heyvanıq. Biz insanlar yer üzündəki ən pis heyvanlarıq. Bizi doğan dünyanı çirkləndirmişik və pozulmuş cəmiyyət olmuşuq. Bütün dünya pis vəziyyətdədir və məhv olur. Ona görə, təbii seçmə tətbiq edilməlidir. Nə qədər tez edilsə, o qədər yaxşıdır... Qanun ancaq güclünün fikridir... Ona görə, həyatınızı özünüz idarə etməli və anarxist olmalısınız. İstədiyinizi etməli, sizə nə etməli olduğunuzu deyənləri dinləməməlisiniz. Bu, sizin həyatınızdır. Güclülər həyatda qalmalı, zəiflər ölməlidirlər. Bu, güclünün həyatda qalmasıdır, təbii seçmədir. Heyvanlar mütəmadi ölürlər. Bir it ölərkən başqa it ağlamır. İnsanlar da ölür. Eyni cür davranmaq lazımdır. Bu, təbiidir, böyük, əhəmiyyətli bir şey deyil. Tanımadığınız birisi üçün ağlamayın, bu, kədərli hal deyil. Mənim şəxsi fikrim budur: İNSAN İRQİNİN SOYQIRIMI HƏYATA KEÇİRİLMƏLİDİR".

Auvinen düşüncələrini ifadə etdiyi bəyannaməsində bu qırğını törətməsində darvinist fikirlərinin təsiri olduğunu bu sözlərlə açıq-aydın bildirirdi:

"Davam üçün döyüşməyə və ölməyə hazıram... Bir təbii seçici kimi uyğun hesab etmədiklərimi, insan irqinin və təbii seçmənin üz qarası olanları məhv edəcəyəm. Xeyr, həqiqət bundan ibarətdir ki, mən ancaq bir heyvan, bir insan və bir müxalifəm... Artıq təbii seçmə və güclü olanın həyatda qalması prinsipini yenidən işə salmağın vaxtı çatıb!"

Darvinizmə bağlılını ifadə edən məktəb qatilləri təkcə Auvinen, Klibol və ya Erik Harris deyil. 2007-ci ilin aprel ayında ABŞ-da Virciniya Texniki Universitetində 32 nəfərin ölümü ilə nəticələnən silahlı hücumu törədən Seunq Hyu Ço da başqa bir darvinist cinayətkardır.

## Birtərəfli darvinist təhsilin nəticələri

Darvinist təhsil insanlara həyatlarının məqsədi olmadığını təlqin edərək onları hər cür ümid və sevincdən məhrum, bədbin, cani xarakterli ruhi xəstələrə çevirir.

Bunun ən son nümunələrindən biri norveçli Anders Berinq Breyvikdir. Breyvik 22 iyul 2011-ci ildə Norveçdə baş vermiş iki terror hadisəsinin törədicisi olduğunu etiraf etmişdir. Bunlardan biri Oslodakı hökumət binasında törədilən, səkkiz nəfərin ölümü ilə nətəcələnən bomba partlayışıdır. Digəri isə Utoya adasındakı Fəhlə Partiyasının gənclik düşərgəsinə edilən silahlı hücumdur. Bu silahlı hücum nəticəsində 69 nəfər həyatını itirmişdir.

Breyvik terror hadisələrindən əvvəl "Avropa Müstəqillik Məruzəsi" adlı kitabda fikirlərini izah etmişdir. Kitabının 1518-ci səhifəsində isə özünü elmi dünyagörüşünün və müasir biologiyanın çempionu hesab etdiyini bildirmişdir. Ən çox əhəmiyyət verdiyi kitablar arasında isə Çarlz Darvinin "Növlərin mənşəyi" kitabı var. Breyvikin fikrincə, qüsursuz Avropada sosial darvinizm qanunları qüvvədə olmalıdır.

Breyvik kitabının 1202-ci səhifəsində isə Prinston Universitetindən





darvinist bioloq Li Silverin yevgenika nəzəriyyəsinin yenidən həyata keçirilməsinə dair fikri ilə tamamilə razı olduğunu bildirir. Silverin dünya əhalisinin indiki sayının yarısından da az və ya 3.8 milyarda qədər azaldılması üçün "gələcəkdə radikal siyasətin tətbiq olunmasının labüd olduğu" fikri ilə də tamamilə razıdır. Həmin səhifədə Breyvikin Darvinin "soyqırım və təbii seçmə ... əl-ələ tutub gedər" arqumentini nə qədər mənimsədiyi bu cümlələrdən açıq-aydın görünür:

"İkinci və üçüncü dünya ölkələri əhali artımını dayandırmasa, təbiət baş verəcək qıtlıqla onların bu səhvini düzəldəcək". Arqumentinin davamında Breyvik qərb ölkələrinin bu təbii prosesə, yəni baş verən qıtlığa müdaxilə etməmələrini bu cümlələrlə bildirir:

"Əgər əhali sayını tənzimləmə qanunlarımıza əməl etməyən ölkələrdə qıtlıq baş versə, onlara hər hansı şəkildə yardım etməməli və ya ölkələrin bacarıqsız rəhbərlərinə dayaq olmamalıyıq".

"Əhalinin həddindən artıq artmasının əsas təqsirkarı olan üçüncü dünya ölkələrinə edilən qida yardımı dərhal dayandırılmalıdır".

Breyvikin şəxsən özünün yazdığı bu sözlərdən açıq-aydın görünür ki, aldığı darvinist təhsilə görə əxlaqi dəyərlərdən tamamilə uzaqlaşmışvə bunun nəticəsi olaraq onlarla insanın ölümünə səbəb olan terror hücumlarını soyuqqanlılıqla həyata keçirmişdir.

Darvinist təhsilin səbəb olduğu əxlaqi pozuntu və vəhşiliyin digər nümunəsi də həbs olunmazdan əvvəl 17 uşağı öldürən amerikalı qatil Cefri Dahmerdir. Dahmer ölümündən əvvəl Dateline NBC kanalına verdiyi son müsahibəsində belə açıqlama verir:

"Əgər bir insan bir Yaradanın varlığını və Onun qarşısında məsul olduğunu düşünmürsə, onda niyə onun davranışlarını islah etməyə çalışırsınız? Mən də belə düşünürdüm. Həmişə təkamül nəzəriyyəsinin, yəni bizim təsadüfən sadəcə palçıqdan əmələ gəldiyimizin doğru olduğuna inanmışam. Öldükdə də hər şey bitir, artıq heç bir şey yoxdur".

Darvinin kütlələri zəhərlədiyi batil inanc insanları vəhşi qatilə çevirir. İnsanlara bir Yaradan qarşısında məsul olmadıqlarını təlqin edən, onları məqsədsiz, məsuliyyətsiz, nəzarətsiz varlıqlar olduqlarına inandıran, insanı heyvan hesab edən və ölümü qəti son kimi göstərərək insanları axirət həqiqətindən uzaqlaşdırmağa çalışan bu azğın inancın gətirdiyi nəticə budur.

Son iki yüz ildir dünyaya müharibələri, qırğınları, zalımlığı, terroru, cinayətləri, soyqırımları, degenerasiyanı və hər cür bəlanı gətirən ən böyük batil ideologiya darvinizmdir. Cəmiyyətdə bir vaxtlar təşəkkül edən dinsizliyin, irqi ayrı-seçkiliyin, soyqırımın səbəbi olan faşizmin, kommunizmin və dünya müharibələrinin ardında KEÇƏN ƏSRİN ƏN BÖYÜKYALANI VƏ BƏLASI OLAN DARVİNİZM VAR.

Darvinin başlatdığı bu qara bəlanın cəmiyyətə mənfi təsiri dövrümüzə qədər davam etmişdir. Darvinizmin dövrümüzdəki ən güclü müdafiəçilərindən biri olan Riçard

Dokinzin son kitabı da insanları Allah inancından uzaq, bədbinliyə və ümidsizliyə sürükləyən təlqinlərlə doludur. Bununən əsas nümunələrindən biri Amerikadakı Cess Kilqor adlı 22 yaşlı tələbədir. Bu gəncə professoru Dokinzin kitabını oxumağı tövsiyə etmiş, gənc kitabı oxuduqdan sonra intihar etmişdir.

Bu qaranlıq bəla, yəni darvinizm insanları ölümə, cinayətə, bədbinliyə, yoxluq hissinə, vəhşiliyə sürükləyən, insanlara təsadüfən əmələ gəlmiş heyvan olduğunu təlqin edən azğın inancdır. Bu dinin bir neçə təmsilçisi insanları Allah inancından uzaqlaşdırmaq üçün var gücləri ilə cəhd göstərirlər. Ona görə, darvinizmin əsassız olduğunu məktəblərdə öyrədilməsinə ciddi qarşı çıxır, yaradılışı sübut edən fosilləri gizlədir, zülalın təsadüfən əmələ gəlməyəcəyini, 350 milyondan çox fosilin darvinizmi təkzib etdiyini etiraf etmirlər. Ancaq bütün bu tədbirlərinə baxmayaraq, XXI əsrdə insanlar artıq yalanlara aldanmırlar. Darvinizmin saxtakarlıq olduğu bütün dünyada ifşa edildikdən sonra darvinizmi dirçəltmək üçün edilən bütün cəhdlər boşa çıxmışdır.

Darvinizmin cəmiyyətdəki məhvedici təsiri nəzərə alınaraq məktəblərdə birtərəfli darvinist təhsilə son verilməlidir

Yokela, Kolumbayn və Virciniya Texniki Universtitetində törədilən qırğınlar zamanı canilərin ruhi vəziyyətinin və onları bu davranışlara təşviq edən fərdi səbəblərin üzərində dayanmaq, əlbəttə, lazımlıdır. Ancaq bütün bu hadisələrin əsl mənbəyi məktəblərdə hələ də tədris edilən təkamül nəzəriyyəsidir. Məlum olduğu kimi, təhsil müəssisələrində şagird və tələbələrə həyatın yer üzündə öz-özünə əmələ gəldiyi və insanın təbii seçmə nəticəsində meydana gəlmiş meymun növü olduğu "elmi faktlar" kimi öyrədilir. Yokela, Kolumbayn və Virciniya Texniki Universiteti qırğınlarını törədən canilər də məktəbdə darvinist təhsil almış insanlardır.

Təkamül nəzəriyyəsi dərsliklərdə elmi həqiqət kimi öyrədilir və darvinizmlə yanaşı, qarşı fikir, yəni kainatın və insanların Allah tərəfindən dəyərli məqsəd uğrunda yaradılmasının elmi yolla öyrədilməsi qadağandır. Yəni təkamül nəzəriyyəsi birtərəfli şəkildə, "elmi fakt" kimi göstərilərək tədris edilir. Halbuki, təkamül nəzəriyyəsi 350 milyon fosilin canlıların dəyişmədiyini açıq-aydın göstərməsilə süqut etmiş əsassız nəzəriyyədir. Daha dərinə getdikdə isə cansız varlıqlardan canlılıların əmələ gəldiyini iddia edən darvinizmin öz iddiasının necə həyata keçdiyini açıqlaya bilmədiyini görürük. Hər tərəfdən sıxışdırılmış təkamülçülər hiylələrə əl atırlar. "Piltdaun adamı" saxtakarlığı kimi tanınan, insan kəlləsi fosilinə oranqutan çənəsi birləşdirərək hiyləli yolla düzəltdikləri saxta fosil buna nümunədir.

Yuxarıda təkamül nəzəriyyəsinin cavablaya bilmədiyi məsələləri çox qısa təhlil etdik, lakin belə sualların sayı mini keçir və elmin inkişafı ilə bu say getdikcə artır. Ancaq məktəblərdə kiçik yaşlardan etibarən aldıqları birtərəfli darvinist təhsilə görə şagird və tələbələr təkamül nəzəriyyəsinin vəhşiliyə sürükləyən iddialarını doğru hesab edir və bunun nəticələri qorxunc olur.

Tez bir zamanda təkamül nəzəriyyəsinin birtərəfli tədris edilməsinə son qoymalı və dərsliklərdə təkamül nəzəriyyəsinə qarşı çıxan elmi faktlara da yer verilməlidir. Təhsil siyasətini müəyyənedənlər darvinist təhsilin bu cür nəticələr verəcəyini bilməli, bu məsuliyyəti öz üzərlərinə götürməlidirlər. Dərsliklər buna əsasən tərtib edilməli, gənclərə darvinizmin elmi cəhətdən süqutu və ideoloji arxa planı haqqında məlumat verilməlidir.



# KAİNATI BÜRÜYƏN YARADILIŞ MÖCÜZƏSİ:

## Fraktal Həndəsə

Bədənimizdəki qan damarları, Yupiterin üstündəki qırmızı ləkələr, ilbizin qabığı, hündür dağların qırışları, qar dənəciklərinin formaları və ağacların yarpaqları... Bütün bu sadalananların tibb, astronomiya, biologiya və ya coğrafiya kimi bir-birindən tamamilə fərqli elm sahələrinin mövzuları olduğunu düşünə bilərsiniz. Lakin bunların hamısı ilə yaxından əlaqəsi olan bir elm sahəsi var: fraktal həndəsə. Bəs fraktal həndəsə nədir? Uca Allah'ın qüsursuz nizamını və sonsuz elmini necə göstərir?

Yer kürəsini təsəvvürünüzdə canlandırmağa çalışın. Ağaclar, buludlar, dalğalar, dağlar, ovalıqlar, səhralar... Hər birinin ortaq xüsusiyyəti həndəsədəki üçbucaq, kvadrat və dairələr kimi tam düz və ya yuvarlaq cizgilərinin olmamasıdır. İndiyə qədər heç kim kürə formasında alma və ya bulud, dümdüz səhra və ya dəniz, konus formasında dağ, kub formasında çınqıl, silindr şəklində ağac gövdəsi görməyib. Çünki uca Allah'ın yaratdığı dünya və bütün kainat girintili-çıxıntılı, qırışlı, bir-birinə keçmiş, düyünlü formalardan təşkil olunub. Bir-birini tamamlayan bu mürəkkəb formaların birləşməsi ilə Yer çox müxtəlif, rəngli və bir-biri ilə mükəmməl ahəng içində olan görünüşə malikdir.

***Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada (axtardığını tapmayıb) zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır! (Mülk surəsi, 3-4)***





Ayələrdə də bildirildiyi kimi, kainatdakı hər şey mükəmməl nizam və ahəngə malikdir. Uca Allah'ın yaratdığı, dəqiq hesablamalar tələb edən bu mükəmməl sistemi və incə təfərrüatları elmi səviyyədə tədqiq etmək üçün fraktal həndəsə elmi meydana gəlmişdir.

### Fraktal həndəsə nədir və necə meydana gəlmişdir?

Riyaziyyatın əsas qolu olan həndəsə insanın yaşadığı dünyanı öyrənməsi üçün vacibdir. Ancaq kainatın mükəmməl görünüşü Evklid həndəsəsi və ya klassik həndəsə ilə açıqlanmayacaq qədər mürəkkəbdir. Çünki klassik həndəsədəki formalar düz xətt, müstəvi, üçbucaq və konuslardan ibarətdir və dünyanın mürəkkəb quruluşunu anlamaq və modelləşdirmək üçün bu formalar kifayət etmir. Latın dilində "fraktus" (sınmış, qırılmış) sözündən əmələ gələn və fransız riyaziyyatçı Benua Mandelbrot tərəfindən 1975-ci ildə əsası qoyulmuş həndəsənin bu yeni sahəsi qarışıq, ancaq mükəmməl uyğunluq və gözəllikdəki dünyanın qüsursuz quruluşunu öyrənir.

### Fraktal həndəsə uca Allah'ın üstün yaratmasını göstərir

Fraktal həndəsənin əsasını təşkil edən başlıca xüsusiyyətlər uca Allah'ın yaratdığı varlıqlardakı ölçünü və dəqiq hesablamanı göstərir.

***... Onun dərgahında hər şeyin müəyyən ölçüsü vardır. (Rad surəsi, 8)***

Başlanğıc forma. Cismin forması, əslində, bir formanın iç-içə keçmiş kiçik surətləri şəklində ardıcıl təkrar olunur. Ölçüləri kiçilən və bir-birini izləyən formalar zəncirvarı şəkildə davam edir. Ancaq bu formalar çox simmetrik düzülürlər. Buna ən yaxşı misal qar dənəcikləri və ilbiz qabığıdır.

Möhtəşəm nizam. Təbiətdə gördüyünüz bütün cisimlər, hətta orqanizminizdəki sistemlər belə çoxlu mürəkkəb formadan təşkil olunmuş kimi görünsə də, əslində, müəyyən nizamla yerləşiblər.

Bu xüsusiyyətlər mürəkkəb göründüyü halda, əslində, çox simmetrik şəkildə təkrarlanan naxışların varlığını göstərir.

### Fraktal həndəsəyə misallar

Öz orqanizmimizdən nəfəs borusunu misal çəkək. Nəfəs borumuz iki yerə ayrılaraq iki bronx əmələ gətirir. Bunu başlanğıc forma qəbul edək. Bu iki qolun hər biri başlanğıc forma görünüşündə yenidən iki yerə ayrılır və borucuqlar ağciyər kisələrinin içində də getdikcə ölçüsü kiçilərək, lakin başlanğıc forma şəklində şaxələnməkdə davam edir. Bu nümunəni dünyadakı bir çox cisimdə görmək mümkündür.

Bir-birinin içinə keçmiş əzələ lifləri, ağacların budaqları, aortadan kapillyarlara qədər bütün qan damarları, qasırğa kimi güclü küləklərdən yerdəki yarpaqları tərpədən mehlərə qədər azalan hava axınlarının düzülüşü, uzaqdan baxdıqda görünməyən, lakin yaxından baxdıqda insanı heyrətə salan naxışlı qar dənəcikləri, hətta normal ürək döyüntüsü ritminin belə ürək əzələlərindəki sinir liflərinin fraktal quruluşuna uyğun olması Allah'ın fraktal həndəsə elmindəki üstün yaratma sənətinin dəlillərindəndir.

## Koxun qar dənəcikləri

Helge fon Kox uca Allah'ın təbiətdəki fraktal həndəsi sistemindən ilham alaraq 1904-cü ildə "Kox qar dənəcikləri" adlandırdığı qar dənəciklərini kağızda çəkmişdir. Başlanğıc forma kimi üçbucaqdan istifadə edən Kox hər üçbucağın kənarlarına daha kiçik üçbucaqlar yerləşdirərək müxtəlif qar dənəciyi formaları əldə etmişdir.

Koxun qar dənəcikləri bu elm adamının əvvəlcə riyaziyyat və fraktal həndəsə qanunlarını öyrənməsi, daha sonra bu biliklərini kağız üzərinə köçürməsi ilə meydana gəlmişdir. Başqa sözlə, qar dənəciklərini uzun müddətli təhsil nəticəsində çəkə bilmişdir. Təbiətdəki canlı və cansız varlıqların yaradılışını nəzərə alsaq, rəsm çəkmək çox bəsit ifadə kimi səslənər. Elə isə dünyadakı ağacların, yarpaqların, qar dənəciklərinin, yer üzünün formalarının, heyvan dərilərindəki naxışların, bədənimizdəki sistemlərin fraktal həndəsə qanunları əsasında təsadüfən əmələ gəlməsi mümkündürmü? Bir elm adamının uzun illər əmək sərf edərək yiyələndiyi bilikləri ağlı və şüuru olmayan cisimlər özləri öyrənə bilərmi? Əlbəttə, xeyr! Çünki dünyadakı bütün canlı və cansız varlıqlar uca Allah'ın üstün ağlının və elminin təcəllilləri kimi yaradılmışdır və ilk baxışda qarışıq görünən formalarına baxmayaraq, insanı heyrətə salan həndəsi sistemə malikdirlər.

## Yaradılış möcüzəsi bütün kainata hakimdir

Fraktal həndəsə müasir riyaziyyatçıların çox yaxşı bildiyi və tətbiq etdikləri riyazi qanundur. Dünyada bir-biri ilə əlaqəsiz görünən canlı və cansız bir çox varlıqların quruluşunun bu həndəsi nizam əsasında olması onların xüsusi yaradıldığını sübut edir. Bu həndəsi nizamla yaradılmış bitkilər, qalaktikalar, mikroorqanizmlər, kristallar, canlılar və bədənimiz uca Allah'ın üstün sənətinin, ağlının və elminin nümunələridir. Rəbbimiz bir Quran ayəsində hər şeyi ölçü ilə yaratdığını belə bildirir:

*Göylərin və yerin səltənəti Ona məxsusdur. O, Özünə övlad götürməmişdir və səltənətində də şəriki olan yoxdur. O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir. (Furqan surəsi, 2)*

# HÜCEYRƏDƏKİ BƏNZƏRSİZ HASİLAT: ZÜLAL SİNTEZİ

Canlılar üçün həyati əhəmiyyətə malik olan zülallar hüceyrənin içində dünyadakı heç bir sistemlə müqayisə edilməyəcək qədər kompleks, nizamlı və qüsursuz sistemlə hasil edilirlər.

Bu kompleks hasilat sistemində heç bir səhvə yol verilmir. Hər hansı mərhələdə meydana gələn xəta dərhal təhlükəsizliyə nəzarət sistemi ilə bərpa edilir. Beləliklə, canlının həyatını davam etdirməsini təmin edən zülallar heç bir xəta olmadan, məhz lazımi vaxtda, lazımi yerdə və lazımi şəkildə hasil edilir.

Zülal hasilatının digər möcüzəvi xüsusiyyəti də çox yüksək sürətlə həyata keçirilməsidir. Məsələn, 100 amin turşusu daşıyan bir zülal molekulu E. coli (belə tələffüz edilir: "Eşerixiya koli") bakteriyasının hüceyrəsində 5 saniyədə sintez edilir. Bu o qədər böyük sürətdir ki, yer üzündə belə sürətlə bütün istehsal prosesini tamamlayan fabrik yoxdur. Bu sürət canlı üçün çox vacibdir. Çünki həyatın davam etdirilməsi üçün hüceyrələrdə hər an bir çox zülala ehtiyac olur.

Zülal sintezlənməsi zamanı bir çox zülal eyni anda fəaliyyət göstərir. Hüceyrələrin içində zülal sintezi üçün bütün lazımi hissələr qüsursuz şəkildə işliyir. 80-dan çox ribosom zülalı, 20-dən çox amin turşusu xəbərçisi olan molekullar, 12-dən çox köməkçi ferment, 100-dən çox son əməliyyatları həyata keçirən ferment, 40-dan çox RNT molekulu olmaqla təqribən 300 makromolekul mütəşəkkil şəkildə zülal sintezində işliyir. Böyük mühəndis briqadasının belə çətinliklə təşkil edəcəyi bu qüsursuz istehsal prosesi 0.001 mm-dən də kiçik sahədə, bundan çox kiçik yüzlərlə molekulun sıx fəaliyyətilə həyatın davam etməsini təmin edir. Bu prosesdə fəaliyyət göstərən molekullardan biri olmasa, bütün istehsal prosesi zədələnər. Bu da zülal sintezinin canlılardakı "reduksiyaedilməz kompleks" sistemlərdən biri olduğunu göstərir. Belə bir sistemin tərkibindən bir hissə çıxarılsa, bütün sistem pozular. Məsələn, hasilatı başa çatdıran və sintezlənən yeni zülalı istehsal prosesindən çıxaran zülalın olmaması sintezlənmə prosesini pozmaq üçün kifayətdir. Bu qədər planlı və mütəşəkkil şüurla özünü göstərən proses ancaq Allah'ın yaratmasıyla mümkündür.

Bu istehsal prosesində iştirak edənlər hüceyrənin orqanoidləri və molekullardır. Bu molekulların quruluşunu tədqiq etdikdə daha kiçik molekullar olan amin turşuları və bunların da kökündə şüursuz, cansız atomların olduğunu görürük. Karbon, hidrogen, oksigen, azot kimi atomların birləşməsilə əmələ gələn bu quruluş vahidləri gözlənilməz ağıl və şüurla insanların bacarmadığı əməliyyatları həyata keçirirlər.

Bəs şüursuz atomlara şüurlu hərəkətləri etdirən, atomları atom professorlarından daha müvəffəq edən nədir? Bu, cansız, şüursuz atomların və molekulların özündən qaynaqlanmır. Bütün bu varlıqları "göylərdən yerə qədər hər işi idarə edib yoluna qoyan" Allah qüdrəti ilə hərəkət etdirir.



# İMANLARINA ZÜLM QARIŞDIRANLAR

İmanlarına zülm qarışdıranlardan Quranda iman gətirən insanların arasında yaşayan bir qrup kimi bəhs edilir. İmana zülm qarışdırmaq insanın Allah'ın ucalığını, haqq dinin üstünlüyünü qavramasına, dünya və axirətdə xilas olmaq üçün Qurana tabe olmaqda başqa yol olmadığını anlamasına baxmayaraq, cahiliyyə əxlaqını tamamilə tərk etməməsidir. İmanına zülm qarışdıranlar imanla yanaşı, nəfslərinə zidd olan vəziyyət olduqda və ya çətinliklə qarşılaşdıqda Quran əxlaqına uyğun hərəkət etmək əvəzinə din əxlaqı ilə yaşamayan insanlar kimi davranırlar. Allah Quranda belə insanların vəziyyətini bizə belə bildirir:

**Onlar cahiliyyə hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allah'dan daha yaxşı hökm verən kim ola bilər? (Maidə surəsi, 50)**

Burada bəhs etdiyimiz insanlar Quranın hökmlərinin bir çoxuna əməl edib bəzən mömin kimi davranırlar. Ancaq bəzi hərəkətlərin Qurana görə səhv olduğunu anlamaya bilər və ya lazımınca dərk etməzlər. Müsəlman kimi yaşadıqları halda, bəzi inanc və davranışların Qurana zidd olduğunun fərqinə varmazlar. Məsələn, bir çox insan hisslərinə qapılmağın Quran əxlaqına zidd olduğunu anlamır və ya buna etinasız yanaşır. Bir qohumu öldükdə müsəlman onun yox olmadığını, ölümün əbədi həyatı üçün yeni başlanğıc olduğunu düşünər və əgər bu qohumu mömindirsə, onun cənnətə gedəcəyini ümid edərək sevinər. Bundan əlavə, ölüm Allah'ın hökmüdür və Allah hər hadisə kimi, ölümü də xeyirlə yaradır. Ona görə də mömin qohumu da olsa, ölümündə xeyir olduğunu bilər və Allah'ın hökmünə razı olar. Bir çox insan bu həqiqəti bilsə də, qohumunun ölümünə görə hisslərinə qapılaraq kədərlənir. Bu cür münasibət həmin insanların - əksini iddia etsələr də - əslində, Quran əxlaqından uzaq olduğunu göstərən dəlillərdəndir.

## İman gətirdiyi halda, cahiliyyə həyatı yaşamamaq

Allah Quranda iman gətirənləri gözəl həyatla müjdələmişdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Allah'ın Quranda müjdələdiyi əbədi cənnəti istəyən hər insan cahiliyyə əxlaqından qalan gizli və açıq hər cür xüsusiyyətini tərk etməli və əvəzində Qurana uyğun davranmalıdır. Allah'a iman gətirən və Qurana tabe olan hər mömin Qurana daha səmimi yanaşmalı və ayələrdəki mömin əxlaqına zidd olan hər cür davranış və düşüncədən xilas olmalıdır. Quranla bildirilən həqiqətləri sadəcə nəzəri cəhətdən bilməklə kifayətlənməməli, bunları praktiki olaraq hər an həyata keçirməlidir. Allah'ın hər yeri əhatə etdiyini, insanın içindən keçən bütün gizli niyyətlərini bildiyini, gizli qeyri-səmimi hərəkətlərini də gördüyünü unutmamalıdır. Daima Allah qorxusu ilə yaşamalı və Quran əxlaqına uyğun olmayan davranışlarını düzəltməlidir. Əks təqdirdə, yəni pis xüsusiyyətlərindən əl çəkmədən yaşayarsa, əsla əsl mənada iman gətirmiş olmaz. Allah Quranda belə buyurur:

**İnsanlar yalnız: "İman gətirdik!" – demələri ilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? Biz onlardan əvvəlkiləri də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da, yalançıları da çox gözəl tanıyır! (Ənkəbut surəsi, 2-3)**

Müsəlman müəyyən ibadətləri yerinə yetirməklə kifayətlənib çatışmayan cəhətlərinə etinasız yanaşmamalı, Allah'ın, həqiqətən, iman gətirməyən insanlara hər an amansız əzab verməyə qadir olduğunu, gec-tez hər insanın öləcəyini və bütün əməllərinə görə haqq-hesaba çəkilib qarşılığını alacağını düşünməlidir.

İmanına zülm qarışdırmayan, Quran əxlaqına uyğun yaşayan insan dünyada da mükafatını alacaq. Hadisələrin xeyirli tərəfini düşünmək və sonsuz ağıl sahibi olan Allah'a təslim olmaq insanlara daimi, əsl xoşbəxtliyi qazandırır. Bu xoşbəxtlik Allah'ın ancaq əsl imana malik səmimi möminlərə verdiyi nemətdir.

İman gətirdiyinə və imanına zülm qarışdırmadığına görə, Allah insana əmin-amanlıq və hidayət də bəxş edəcək. Rəbbimiz bunu bir ayəsində belə bildirir:

**İman gətirib imanlarını zülmə qarışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır! (Ənam surəsi, 82)**



# DƏNİZ SUYUNUN EKOSİSTEMƏ TƏSİRİ

- *Dəniz suyunun duzluluğu necə meydana gəlmişdir?*
- *Dəniz suyunun duzluluq faizi nə üçün dəyişmir?*
- *Okeanlarda yaşayan planktonlar dünyanın temperaturuna necə təsir edir?*

Dəniz suyunun duzlu olduğu hamıya məlumdur. Dəniz suyunun duzluluğu çox həssas ölçüdədir. Aparılan tədqiqatlarla dəniz suyunun orta duzluluq dərəcəsinin 3.5% olduğu və bu faizin sabit qaldığı müəyyən edilmişdir. Bu, 1 mil (1.6 km) suda təqribən 186 milyon ton duz olması deməkdir. Məsələn, okeanlardakı bu qədər duz ilə qitələri 152300 metr qalınlığında duz təbəqəsi ilə tamamilə örtmək mümkündür.

## Bəs bu duzluluq necə meydana gəlmişdir?

Elm adamları dəniz suyunun duzluluğunun necə əmələ gəldiyinə dair bir çox fikir irəli sürmüşlər. Bu fərziyyələrdən birinə əsasən, qurudakı elementlər aşınma nəticəsində dənizlərə daşınmış, ona görə, qurudakı elementlərin hamısı dəniz suyunda da var. Məsələn, isti dəniz suyunun 85%-dən çoxu natrium xloriddən, yəni xörək duzundan ibarətdir. Çayların gətirdiyi natrium kimi minerallar torpaq və qayaların aşınması nəticəsində üzə çıxır. Lakin dəniz suyundakı bor və xlor kimi digər elementləri çaylar gətirmədiyinə görə, bu prosesdə başqa amillərin da rol oynadığı düşünülür.

Başqa fərziyyəyə görə, dəniz suyunun duzluluğu yer qabığının təbəqələri arasındakı qazlardan qaynaqlanır. Müxtəlif dövrlərdə yer qabığı ilə yerin mərkəzi arasında qalan təbəqənin zəhərli qazlardan təmizlənməsi prosesində digər maddələrlə birlikdə su və xlor da yer qabığının altındakı ərimiş vulkanik qayaların arasından çıxır. Bu fərziyyəyə görə, dövrümüzdə müxtəlif aşındırma amilləri (külək, çaylar, yağış suları və s.) nəticəsində atmosferə yayılan bu elementlər dənizlərə yağıntı şəklində düşür. Mineralların dəniz suyuna qarışmasının digər yolu isə ölən dəniz heyvanları vasitəsilə olur. Dəniz heyvanları öldükdə torpağa qarışıb yenidən dənizə qayıdırlar.

## Dəniz suyunun duzluluğu nə üçün getdikcə artmır?

Dəniz suyundakı duzun miqdarında yüz milyon illərdən bəri mühüm dəyişiklik olmayıb. Həll olmuş maddələrin miqdarının zamana və yerə görə dəyişməsi ilə yanaşı, müəyyən elementlərin okeanlarda hər dövrdə eyni faizdə olduğu qəbul edilir. Bu cəhətdən okeanı, lazımi ölçünü sabit saxlamaqla, elementlərin bir tərəfdən suya əlavə edilib digər tərəfdən müntəzəm boşaldıldığı böyük çənə bənzətmək olar.



Məsələn, elementlərdən bəziləri qayalarla birləşir, beləliklə, torpaq tərəfindən sorulur və bu proses nəticəsində çöküntüyə çevrilir. Dənizdə yaşayan bitkilər və heyvanlar da bu elementlərdən faydalanırlar. Bu yolla dəniz suyundakı mineralların miqdarı daima sabit qalır. Beləliklə, yer üzündə həyatı davam etdirən qüsursuz müvazinət qorunur.

Göründüyü kimi, hər yerdə hakim olan qüsursuz ölçü dəniz suyundakı duz və başqa elementlərə də aiddir. Unutmaq olmaz ki, bütün bunları müəyyən edən, hər şeyi bir ölçü ilə, müəyyən nizamla yaradan sonsuz elm və qüdrət sahibi olan uca Allah'dır. Bu həqiqət bir Quran ayəsində belə xəbər verilmişdir:

**O Allah ki, göylərin və yerin hökmü Onundur. O, (Özünə) heç bir övlad götürməmişdir; mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onlara münasib bir biçim vermişdir. (Furqan surəsi, 2)**

### Planktonların dünyanın temperaturuna təsiri

Yer üzündə həssas müvazinətlə qurulmuş, ahəngdar sistem var. Yeri həyat üçün əlverişli edən bu sistemdə yaşayan varlıqlar, eyni zamanda, sistemə də fayda verirlər. Hikmətli yaradılışı göstərən bu nizamda bəzi canlıların daha vacib funksiyaları var. Okeanlarda yaşayan və balinaların qidalandığı planktonlar da bunlardan biridir.

Planktonların çoxu dimetil-sulfid adlı kimyəvi maddə hasil edirlər. Bu maddə oksigenlə birləşərək sulfata çevrilir. Sulfatlar okeanın səthindəki su buxarının sıxlaşması üçün nüvə əmələ gətirərək buludları meydana gətirirlər. Bu nüvələr çox böyük olduqlarına görə, yağışa səbəb olmurlar, ancaq buludların günəş şüalarını əks etdirmə və ya sorma dərəcəsinə təsir edirlər. Bu, "albedo" adlanır. Dimetil-sulfid albedonu artırır. Beləcə, buludlar günəş şüalarını əks etdirir, bununla əlaqədar olaraq, torpağa düşən günəş şüaları da azalır. Ona görə, bir çox insanın həyatında bircə dəfə də görmədiyi planktonlar dünyanın çox həssas ekoloji sistemində mühüm yer tuturlar. Rəbbimizin ilhamı ilə hərəkət edən bu mikroskopik canlıların vəsiləsi ilə günəş şüaları torpağa daha az düşür və havanın temperaturu da həyat üçün təhlükəli dərəcədə qalxmır.



# ZALIMLIQ VƏ RƏHMSİZLİK İNANCSIZLIĞIN NƏTİCƏSİDİR

- **Bəzi insanların aqressiv, zalım, mərhəmətsiz olmasının səbəbləri nədir?**
- **Mərhəmətsizliyin cəmiyyətdə səbəb olduğu problemlərin həlli nədir?**

Demək olar ki, hər gün KİV-lərdə ailəsini saxlamaq üçün dilənən, çörək tapmadığına görə aclıqdan ölən, evi olmadığına görə çadırlarda yaşayan, haqsızlığa məruz qalan insanların xəbərlərini görürük. Özünə qəsd edən, bir-birlərini öldürən, hücuma məruz qalan, şikəst olan, dalaşan insanlarla bağlı xəbərlərə rast gəlirik. Bu, illərdir dəyişmədən davam edən haldır. Bu mövzuya müxtəlif həll yolları düşünülür, xeyriyyə qurumları işə qarışır, pulsuz yeməkxanalar açılır və bənzər tədbirlər görülür. Ancaq bütün səylərə baxmayaraq, bu xəbərlər azalmır, əksinə, artaraq davam edir.

Hətta dövrümüzdə vəziyyət elə səviyyəyə çatıb ki, mənfəəti olmadıqca kimsə kimsəyə yardım etmir. Bəzi insanlar yüzlərlə insanı doyuracaq yeməyi zibilliyə atır, bəzi insanlar isə küçədə ac yaşayır, aclıqdan ölür. Bu cür insanlar saxta üsullara əl ataraq bir-birlərinin malını haqsızlıqla yeməkdən, başqalarının hüquqlarını pozaraq pul qazanmaqdan çəkinmir, ətrafda gördükləri ədalətsizliyə, xətalara qarşı mübarizə aparmır, haqsızlığa qarşı səslərini çıxarmırlar. Ona görə, belə bir mühitdə zalım, mərhəmətsiz insanlar zəif və gücsüzləri istədikləri kimi əzirlər.

## Müasir cəmiyyətdə qarışıqlığın əsas səbəbi inancsızlığın meydana gətirdiyi zalımlıq və rəhmsizlikdir

Mərhəmətin əsl mənasını və mərhəmətli insanın xüsusiyyətlərini öyrənmək üçün ən doğru mənbə Qurandır. Quranda insanları mərhəmətə təşviq edən bir çox ayə var.

İslam əxlaqının hakim olduğu cəmiyyət həm maddi, həm də mənəvi

cəhətdən rahat olar. Belə cəmiyyətdə ehtiyacı olanlara ətrafdakı insanlar mütləq kömək edərlər. Uşaqlar sevgi və mərhəmətin hakim olduğu mühitdə böyüyərlər. Güclülər zəifləri qoruyarlar. Heç kim başqasının hüququnu tapdalamaz. Hamının bir-birinə dəstək olduğu bir cəmiyyətdə, əlbəttə, qorunmalı heç kim qalmaz.

Quran əxlaqı ilə tam yaşayan cəmiyyətdə ədalətsizlik, qarışıqlıq, təzyiq, zülm olmaz. Belə mühitdə həmişə şəfqət, mərhəmət, sülh və ədalət hakim olar.

Mərhəmət Allah sevgisi və Allah qorxusundan meydana gəlir. Allah'ı çox sevən insan Allah'ın yaratdıqlarını da çox sevər, onlara şəfqət və mərhəmətlə yanaşar. Rəbbimizə olan güclü sevgisi və bağlılığına görə, Quranda əmr edildiyi kimi insanlarla mərhəmətlə davranar.

Mərhəmət hissləri ilə dolu insan baxdığı hər şeydə gözəllik və xeyir görər. Yoxsulları ehtiyacını təmin edər, acizləri qoruyar, ehtiyacı olana kömək edər. Allah sevgisi və Allah qorxusundan qaynaqlanan mərhəmətin olmadığı cəmiyyətdə isə varlı kasıbı doyurmaz, haqsızlığa məruz qalanın hüququ müdafiə edilməz, evsiz-eşiksiz insana kömək edilməz.

Dinsizliyin səbəb olduğu qarışıqlıq və zülm mühitindən xilas olmağın yeganə yolu Allah'ın Quranda öyrətdiyi və Peyğəmbərimizin (s.ə.v) tövsiyə etdiyi mərhəmət anlayışını mənimsəməkdir. Quranda bu əxlaqın əhəmiyyəti belə bildirilmişdir:

*Sonra da iman gətirən və bir-birinə səbir tövsiyə edən, mərhəmət tövsiyə edən kimsələrdən olmaqdır! Onlar sağ tərəf sahibləridir! (Bələd surəsi, 17-18)*

Cəmiyyətdə zülm və mərhəmətsizliyin qəti həllini tapmamasının səbəbləri eqoistlik, şəxsi mənfəət və dünyəvi istəklər, laqeydlik kimi əxlaqi pozuntulardır. Bu pozuntuların aradan qalxmasının yeganə yolu da Quranın təqdim etdiyi əxlaq modelini təbliğ etmək, vicdansızlığa görə axirətdə cavab veriləcəyini xatırlatmaqdır.

### Cəmiyyətdə mərhəmətin yayılması üçün...

Cəmiyyətdə bir davranışın yayılması üçün əvvəlcə o cəmiyyətin fərdləri bu davranışı və kökündəki anlayışı dərk edib mənimsəməlidirlər. Din əxlaqından uzaq yaşayan insanların gözəl əxlaqa yönəlmələri isə çox asandır. Mərhəmətə yönəlmək insanın verdiyi bircə qərar və niyyətdən asılıdır.

Bu niyyətdən sonra insan həm dünyada, həm də axirətdə gözəl həyat yaşayacaq və Quran əxlaqı ilə yaşamağın mükafatını Allah qatında alacaq. Bundan əlavə, uca Allah Quran əxlaqı ilə yaşamağa qərar verib zülmdən əl çəkən insanın günahlarını da bağışlayacağını bildirmişdir:

*Lakin hər kəs gördüyü haqsız işdən sonra tövbə edib özünü düzəltsə, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Maidə surəsi, 39)*

Quranda bildirilən mühitin təmin edilməsi üçün insanlar əvvəl özlərindən başlayaraq Quran əxlaqı ilə yaşamağa niyyət etməli, daha sonra insanlar arasında Quran əxlaqını yaymaq üçün cəhd göstərməlidirlər. Quranda bildirilən əxlaqla yaşadıqda cəmiyyətdə heç bir ayrı-seçkiliyə yol vermədən hər kəs ədalətli, mərhəmətli, anlayışlı, sevgi dolu, hörmətcil, dürüst olar, Allah'ın izni ilə, yer üzündə sülh və əmin-amanlıq bərqərar olar. Rəbbimiz bunun üçün möminlərin üstün əxlaqa yiyələnmələrini bir ayəsində belə bildirmişdir:

***İçərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar, həqiqətən, nicat tapmış şəxslərdir. (Ali-İmran surəsi, 44)***

Həqiqi ədalətin bərqərar olduğu cəmiyyətdə saxtakarlıq, mənfəət güdmə, bir-birinin hüququnu tapdalama kimi əxlaqi pozuntulara insanlar yol verməz. Çünki Quran əxlaqının əsas xüsusiyyətlərindən biri olan xeyirxahlıq, mərhəmət kimi vicdanlı davranışlar nəticəsində mütləq ədalətli mühit formalaşar və hər kəsin hüququ qorunar. Bütün bunların nəticəsində də cəmiyyətə sülh və əmin-amanlıq hakim olar. Elə isə bütün müsəlmanlar Allah'ın razı qaldığı əxlaqı, haqq dini bütün dünyaya təbliğ etməlidirlər. Çünki bu, inananların Quranda diqqət çəkilən ən əsas xüsusiyyətlərindən biridir. Allah ayələrdə belə buyurur:

***Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allah'a inanırsınız... (Ali-İmran surəsi, 110)***

## Möminlər vicdanla hərəkət edərək hadisələrə laqeyd yanaşmazlar

Hadisələrə vicdan və ağılla yanaşan insanlar sürətlə çatışmayan cəhətləri və ehtiyacları müəyyənləşdirib həll yolu düşünürlər. İnsanlar, əsasən, çatışmazlıqları görmür və ya görməməzliyə vururlar. Vicdanlarını narahat etsə də, nə edəcəklərini bilmir və hərəkətə keçməyə ərinirlər. Çünki həyatlarının böyük hissəsini həmin məsələyə ayırmalı olacaqlarını düşünür və rahatlıqlarından əl çəkmək istəmirlər. Ancaq ağıllı, vicdanlı kəslərin bu insanlara yol göstərməsi, qətiyyətsiz, nə edəcəyini bilməyən insanları əllərində olan güc və imkanları ilə istiqamətləndirməsi, şövqləndirməsi nəticəsində bir çox problem həll yolunu tez tapar.

Təşviq etmək və insanları hərəkətə keçirərək xeyir işlərə vəsilə olmaq Quranda göstərilən yaxşı əməldir:

*Yaxşı işə vasitəçi olana (onun savabından), pis işə vasitəçi olana (onun günahından) bir pay düşür. Əlbəttə, Allah hər şeyi qoruyandır. (Nisa surəsi, 85)*





# Necə Nəfəs Alırıq?

Heç vaxt nəfəs alıb-vermə nizamını tənzimləmirsiniz. Çünki bəzi hüceyrələriniz sizin əvəzinizə bunu edir. Əgər tənəffüs nizamını tənzimləmək bizim üzərimizə düşsəydi, nəfəs almağı unutduqda, yuxuya getdikdə və ya başqa işlə məşğul olduqda havasızlıqdan ölərdik.

Hər insan üçün həyati əhəmiyyətə malik tənəffüs prosesini tənəffüs mərkəzi tənzimləyir. Mərcimək dənəsi boyda olan bu mərkəz beynimizin "beyin sapı" adlanan hissəsindədir və üç əsas sinir hüceyrəsi qrupundan təşkil olunmuşdur:

- Birinci hüceyrə qrupu tənəffüsün əsas ritmini tənzimləyir və havanı içimizə çəkməyimiz üçün əmr verirlər. Beləcə, ehtiyacımız olan havanı qəbul edirik.
- İkinci hüceyrə qrupu isə tənəffüsün sürətini və gedişini tənzimləyir. Ancaq ikinci hüceyrə qrupu işə düşdükdə birinci hüceyrə qrupunun fəaliyyətini impulsla dayandırır. Beləliklə, ağciyərə hava dolması tənzimlənir və nəfəs alıb-verməyimiz sürətlənir.
- Üçüncü hüceyrə qrupu isə normal tənəffüs prosesində aktiv olmurlar. Ancaq həddindən artıq havaya ehtiyacımız olduqda işə düşür, qarın əzələlərimizə impuls göndərərək tənəffüs prosesinə qoşulmalarını təmin edirlər.

Bütün bu izah edilənlər həyatda qalmağımız üçün kifayətdirmi? Xeyr.

Tənəffüs kimyəvi yolla da tənzimlənir. Bizim nəfəs alıb-verməyimizin məqsədi qandakı oksigen və karbondioksid miqdarını müəyyən səviyyədə saxlamaqdır. Bu miqdardakı dəyişikliklər isə tənəffüs mərkəzindəki bir hüceyrə qrupunu işə salır və tənəffüsdə pozulmuş ölçülər çox həssas dəyişikliklərlə lazımi səviyyəyə çatdırılır.

Qandakı oksigen miqdarının tənəffüs mərkəzi ilə birbaşa əlaqəsi yoxdur. Ancaq qandakı oksigen miqdarı müəyyən səviyyədən aşağı düşdükdə beyindən kənardakı şah damar kimi bəzi böyük damarlarda yerləşən çox həssas reseptorlar tənəffüs mərkəzinə impuls göndərir, beləliklə, tənəffüsdə lazımi tənzimləmələr edilir. Bizim həyatda qalmaq üçün nə qədər oksigenə ehtiyacımız olduğunu bir hüceyrə qrupu haradan bilir? Elmin ancaq son 20 ildə aşkar etdiyi bu ağlasığmaz mexanizmi hüceyrələr ilk insandan bəri necə bilirlər?

Üstəlik, bu, o qədər həssas mexanizmdir ki, həyatımız boyu oturarkən, qaçarkən və ya yatarkən heç səhv etmir. Orqanizmimizdəki 100 trilyon hüceyrəyə hər an məhz ehtiyacı olan qədər oksigen göndərilir və zərərli karbondioksid və hidrogen ionu kimi tullantılar dərhal xaric edilir.

Bu gün bəzi elm adamları bütün bu həqiqətləri bildikləri halda, sadəcə materializmə bağlılıqlarına görə, bu qüsursuz sistemin kortəbii təsadüflər nəticəsində meydana gəldiyini iddia edirlər. Halbuki, çox aşkardır ki, bu mükəmməl nizamın yaradanı sonsuz ağıl sahibi olan Allah`dır.



# Ən Ağıllı Vicdan Türk-İslam Birliyini istəyən Mehdiyyət Vicdanıdır

Quranın "Həqiqətən, insan çox həris və tamahkar yaradılmışdır! Ona bir pislik üz verdikdə fəryad qoparar..." (Məaric surəsi, 19-20) ayələrində insanın nəfsindəki eqoist əxlaqa diqqət çəkilmişdir. Hər insan nəfsinə çətin gələn vəziyyətlə qarşılaşdıqda, sıxıntıya düşdükdə özünü xilas etmək üçün çox ciddi səy göstərir. Ancaq nəfsindəki eqoistliyə görə, bir çox insan özünə zərəri olmayan, özünü narahat etməyən hallarda başqalarının düşdüyü çətin vəziyyətlə maraqlanmır. Öz canının dərdinə düşdükdə göstərdiyi kimi başqaları üçün səy göstərmir.

Əsl müsəlman əxlaqına isə belə davranış xas deyil. Səmimi iman gətirən insan dünyanın uzaq yerində olsa da, başqa müsəlmanın düşdüyü çətinliyi, sıxıntını öz problemi kimi görər. Allah'ın ona verdiyi bütün maddi-mənəvi imkanları, ağlını, zəkasını, vicdanını, qabiliyyətini, bilik və bacarığını cidd-cəhdlə sərf edərək bu məsələnin həlli yollarını axtarar. "Necə də olsa, bu məsələləri həll edəcək imkanı, qüvvəsi olan, məndən daha ağıllı, təsirli bir çox adam var, onlar düşünüb maraqlansınlar", - deməz.

Dövrümüzdə hər gün qəzet səhifələrində, televiziya xəbərlərində müsəlmanların başına gələn zülmün nə qədər dəhşətli ölçüyə çatdığı bildirilir. Dünyada qarışıqlıq olduğu açıq-aşkar görünür. Hər yerdə müsəlmanlara qarşı siyasət həyata keçirilir. İşgəncəyə məruz qalan, heç bir açıqlama verilmədən evindən aparılan və bir daha haqqında heç bir xəbər olmayan, heç bir səbəb göstərilmədən həbsxanalarda əsir saxlanılan və zülm çəkən müsəlmanların hüquqları tapdanır.

Quranda aciz kimi təsvir edilən bu insanların hüquqlarını müdafiə edən, ağıllı, vicdanlı, açıq şüurlu, güclü, iradəli, səmimi müsəlmanlara ehtiyac var. Bu vəziyyətə baxmayaraq, möminin sakit, laqeyd qalması heç cür doğru deyil. Bu mənzərə qarşısında iman gətirən bütün ağıllı insanların himayədarlıq hissi hərəkətə keçməlidir. Özləri kimi ağıllı və vicdanlı bütün müsəlmanları da təşviq edib əllərindən gələn hər şeyi etmələri Quran əxlaqının tələbidir. Bunu etdikdə böyük qüvvəyə çevriləcək, atılan kiçik bir addım belə, Allah'ın iznilə, bütün dünyaya təsir edəcək.

*"Barı, sizdən əvvəlki nəsillərin ağıl və fəzilət sahibləri yer üzündə FİTNƏ-FƏSAD TÖRƏTMƏYİ QADAĞAN EDƏYDİLƏR! Onların xilas etdiyimiz az bir qismi istisnadır. Zalımlar isə onlara verilmiş nemətə uydular və günahkar oldular". (Hud surəsi, 116)*



**Hz. Muhəmməd (s.ə.v): "Müsəlman müsəlmana zülm etməz və onu təhlükədə qoymaz"**

Müsəlman aləminin bir qismindəki qarışıqlıq təkcə xarici amillərdən qaynaqlanmır, müxtəlif etnik qruplar, məzhəblər, millətlərdən olan müsəlmanlar arasında da – Quran əxlaqına tamamilə zidd olmaq üzrə - qarşıdurmalar baş verir. Allah'ı bir, dini bir, kitabı bir, peyğəmbəri bir olan və Allah'ın əmri ilə qardaş olmalı müsəlmanların bir-birləri ilə mübarizə aparması, şübhəsiz ki, çox düşündürücü məsələdir. Çünki Qurana əsasən, möminlər arasında birlik olmalıdırlar. Ayələrdə belə buyurulur:

*Hamılıqla Allah'ın ipinə möhkəm sarılın və ayrılmayın! Allah'ın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O, sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız! (Ali-İmran surəsi, 103)*

*Həqiqətən, möminlər qardaşdırlar. Buna görə də qardaşlarınızın arasını düzəldin və Allah'dan qorxun ki, bəlkə, rəhm olunasınız! (Hucurat surəsi, 10)*

*Allah'a və Onun Elçisinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa zəifləyər və gücdən düşərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir! (Ənfal surəsi, 46)*

*Və o kəslər üçün ki, onlar zülmə məruz qaldıqda intiqam alarlar. (Şura surəsi, 39)*

Burada müsəlmanların birlik olması ilə bağlı sadəcə bir neçə ayə verilmişdir. Bu ayələrdən və Quranın ümumi məğzindən açıq şəkildə başa düşüldüyü kimi:

- müsəlmanların birləşmələri
- qardaşcasına sevgi və şəfqətlə bir-birlərinə bağlanmaları
- çəkişməmələri
- bir-birlərinin dostları və himayədarları olmaları
- hər şəraitdə bir-birlərini qorumaları
- bir-birləri ilə məsləhətləşmələri
- möhkəm bina kimi səf-səf düzülüb inkarçılara qarşı elmi mübarizə aparmaları fərzdir.

Bütün bunlara əks mövqedə olmaq, yəni:

- birləşdirici deyil, ayırıcı olmaq
- müsəlman qardaşlarına sevgi və şəfqətlə yanaşmamaq
- müsəlman qardaşlarına mərhəmətli olmamaq, qoruyub himayə etməmək
- inkarçılara qarşı elmi mübarizədə müsəlmanlarla möhkəm birləşərək birlikdə ideoloji mübarizə aparmamaq haramdır.

Əgər İslam aləmi güclü, stabil, zəngin sivilizasiya olmaq, dünyaya hər cəhətdən istiqamət vermək istəyirsə, birlik olub hərəkət etməlidir. Bu birliyin olmaması, müsəlman ölkələr arasındakı ayrılıq və dağınıqlığın olması, İslam dünyasından ortaq səsin yüksəlməməsi məzlum müsəlman xalqları





müdafiəsiz qoyur. Fələstində, Kəşmirdə, Şərqi Türküstanda, Moroda və daha bir çox ölkədə aciz qadınlar, uşaqlar və qocalar ehtiyac içində zülmdən xilas olmağı gözləyirlər. Bu məsum insanların məsuliyyəti hər kəsdən əvvəl İslam dünyasının üzərinə düşür.

Müsəlmanlar Peyğəmbərimizin (s.ə.v) "müsəlman müsəlmana zülm etməz və onu təhlükədə qoymaz" (Ebu Davud, Edeb 46, (4893); Tirmizi, Hudud 3, (1426); Buhari, Mezalim 3, İkrah 7; Müslim, Birr 58) sözünü unutmamalı və bu sözə uyğun hərəkət etməlidirlər.

Cənab Adnan Oktar A9 TV-də hər gün canlı yayımlanan söhbətlərində müsəlman qardaşlarımızın çəkdiyi zülmü tez-tez gündəmə gətirir. Ancaq cənab Adnan Oktar İslam dünyasını birləşməyə yeni-yeni çağırmır.

O, 2001-ci ilin iyul ayında nəşr olunmuş "İslamın qışı və gözlənilən baharı" adlı kitabında da, internet saytlarında və müxtəlif qəzetlərdə illərdir dərc olunan məqalələrində də İslam coğrafiyasında baş verən zülmə, şəhid olan qardaş-bacılarımıza diqqət çəkmişdir. Bütün müsəlman aləmini bu mübarək birliyin qurulması üçün cəhd etməyə, bunun üçün edilən fəaliyyətləri dəstəkləməyə dəvət edən cənab Adnan Oktar zülmə razı olmağın zülm olduğunu dəfələrlə vurğulamışdır.

## Türk-İslam Birliyinin hələ də qurulmaması hər müsəlmanın himayədarlıq hissini artırmalıdır

Allah Quranda "... *VERİLMİŞ NEMƏTƏ UYARAQ"* (Hud surəsi, 116) üzərilərinə düşən məsuliyyətə laqeyd yanaşan insanlardan bəhs edir.

Vicdanlı, fəzilətli, Allah'dan qorxan insanların dünyanın hər tərəfindəki müsəlmanların çəkdiyi zülmü gördüyü halda, bunu görməməzliyə vurub ancaq öz istəklərinin arxasınca düşmələri, bəsit dünyəvi mənfəətlər uğrunda bu məsuliyyətlərini bir kənara qoymaları mümkün deyil. Ona görə, belə vəziyyətdə insan təkcə özü hərəkətə keçməməli, digər müsəlmanları da birləşərək gözəl əxlaqın bütün yer üzünə yayılması, zülmün sona çatması üçün cəhd göstərməyə çağırmalıdır. Allah bunun vacibliyini *"... Möminləri də təşviq et..."* (Nisa surəsi, 84) ayəsi ilə insanlara bildirmişdir.

## Türk-İslam Birliyinin qurulması üçün cəhd göstərməyən və bu birliyə mane olmağa çalışan insanlar çox böyük məsuliyyət daşıyırlar

Türk-İslam Birliyinin qurulması bu qədər təcili ikən bu birliyin qurulmasını qeyri-mümkün hesab edənlər, bunun üçün cəhd etməyənlər, edilən fəaliyyətləri

dəstəkləməyənlər çox böyük məsuliyyət daşıdıqlarını unutmamalıdırlar. Zülmə razı olmağın zülm olduğunu qulaqardı etməməlidirlər. Bu böyük coğrafiyada axan hər damla qandan, dağılan hər evdən, şəhid olan hər məsumdan, yaralanıb şikəst olan hər məzlumdan, aclıq və yoxsulluqdan əziyyət çəkən hər insandan Türk-İslam Birliyi üçün cəhd etməyən hər müsəlman məsuldur. Türk-İslam Birliyinin qurulması Allah'ın Quranda göstərdiyi, Peyğəmbərimizin (s.ə.v) hədislərində hərtərəfli bildirdiyi həll yoludur. Qurana əsasən, birlik olmaq fərz, parçalanıb ayrılmaq isə haramdır.

Allah'ın ***"Hamılıqla Allah'ın ipinə möhkəm sarılın və ayrılmayın!" (Ali-İmran surəsi, 103)*** hökmünə görə, inananların dərhal birləşib Türk-İslam Birliyini qurmasını, bu yolla zülmün sona çatmasını, bütün dünyanın sülh və əmin-amanlığa qovuşmasını diləyirik. Rəbbimiz bir ayəsində müsəlmanların bu vəzifəsini belə bildirir:

***Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!"– deyən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)***

## İslam aləmi Mehdiyyətin vicdanı və şövqü ilə birləşməlidir

Bu gün bütün İslam aləmindəki zülm, dünyanın hər tərəfindəki qarışıqlıq və fitnə-fəsad, əslində, əsrin mübarək şəxslərindən hz. Mehdinin (ə.s) gəlişindən xəbər verir. Peyğəmbərimizin (s.ə.v) hz. Mehdinin (ə.s) zühur əlamətləri kimi xəbər verdiyi yüzlərlə hadisənin hər biri hicri 1400-cü ildən etibarən ardıcıl reallaşmışdır.

Bütün İslam aləmi bu hədislər əsasında hz. Mehdini (ə.s) axtarıb tapmalı, onun vasitəsilə dünyanın sülhə, əmin-amanlığa qovuşması üçün cəhd etməlidirlər. Unutmaq olmaz ki, hz. Mehdinin (ə.s) zühuru və İslam əxlaqının yer üzünə hakim olması Allah'ın təqdir etdiyi qədərdir. İnsanlar hz. Mehdiyə (ə.s) dəstək olsalar da, olmasalar da, Allah onu müvəffəq edəcək, inkarçıların bütün fitnələrini onun vasitəsilə aradan qaldıracaq və İslam əxlaqını hakim edəcəkdir. Ona görə, hz. Mehdinin (ə.s) köməkçilərindən olmaq üçün niyyət edən, bunun üçün səy göstərən, Türk-İslam aləminin birləşməsini istəyən, dünyanın hər tərəfində əziyyət çəkən müsəlmanları xilas etmək üçün ideoloji mübarizə aparan hər kəs, əslində, öz lehinə fəaliyyət göstərir. Rəbbimizin "Ənkəbut" surəsində belə buyurur:

***"Cihad edən ancaq özü üçün cihad edər. Allah aləmlərə əsla möhtac deyildir". (Ənkəbut surəsi, 6).***



www.ayeliresmler.com





sından ötrü orada möhkəm
dikləri yerə) gedə bilsinlər
iş yollar saldıq.
surəsi 31



# ZƏİF İMANLI İNSANIN İNKARÇILARIN MÜHİTİNƏ MEYİL ETMƏSİNİN ƏSAS SƏBƏBLƏRİ

*Qəlbi imanla sabit olduğu halda, məcbur edilən şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra Allah'ı inkar etsə və qəlbini küfrə açsa, Allah'ın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır. Bu, ona görədir ki, onlar dünya həyatını axirətdən üstün tuturlar. Həm də Allah kafirləri doğru yola yönəltmir. Bunlar o kəslərdir ki, Allah onların qəlbinə, qulaqlarına və gözlərinə möhür vurmuşdur. Onlar əsl qafildirlər. Şübhəsiz ki, axirətdə ziyana uğrayanlar da onlardır! (Nəhl surəsi, 106-109)*

Möminlərlə birlikdə imiş kimi göründüyü halda, inkarçıların olduğu mühitlərə meyil edən insanlar hər dövrdə hər müsəlman qrupun içindən çıxmışdır. Bu cür insanları üç qrupa bölə bilərik:

- **Mömin olub həyatını Qurana uyğun tənzimlədiyi halda, bir anlıq xəta və qəflətlə inkarçıların mühitinə meyil edənlər**
- **İslam dini ilə yenicə tanış olub məlumatsızlığına görə, Qurana uyğun həyat tərzinə tam uyğunlaşmamış, keçmiş həyatından hələ tam mənada qopmamış insanlar**
- **Uzun müddət möminlərlə birlikdə olduğu halda, həyatını və düşüncə tərzini Qurana əsasən tənzimləməmiş, imani dərinlik əldə etməmiş və nəfsinin idarəsindən çıxmağı bacarmamış zəif iradəli insanlar.**

Bunlardan birinci qrupa daxil olanlar nəfslərinə bir anlıq tabe olmaları nəticəsində belə səhv edirlər. Ancaq xəbərdar edilib səhvləri izah edildikdən



sonra tövbə edib Allah'dan bağışlanma diləyərlər. Eyni səhvi yenə təkrar etməkdən çəkinərlər. İkinci qrupa aid olanlar isə İslamla yeni tanış olublar və hələ tərbiyə olunurlar. Ona görə, səmimi olduqları təqdirdə, lazımi dini biliyi əldə etdikdən sonra bu cür səhvləri etməzlər. Ancaq tərbiyə mərhələsini fürsət bilib onlara edilən güzəştdən sui-istifadə etməyə çalışsalar, Allah dərgahında çox pis vəziyyətə düşəcəklər.

Bu qruplar arasında axirətləri baxımından ən təhlükəli vəziyyətdə olanlar üçüncü qrupa mənsub olanlardır. Bu adamlar o qədər zaman ərzində yiyələndikləri biliyə, möminlər arasında keçirdikləri uzun müddətə baxmayaraq, hələ Quranda tərif edilən ixlaslı və səmimi mömin modelinə qovuşmayıblar. Ona görə, şeytanın və nəfslərinin vəsvəsələrinə tez tabe olurlar. Nə yanlarındakı möminlərin gözəl əxlaqi xüsusiyyətlərindən nümunə götürür, nə də öz səhvlərindən ibrət alırlar. Əsasən, özlərinin haqlı və doğru yolda olduqlarını zənn edərək düzəlməyə, öyüd-nəsihət almağa ehtiyaclarının olmadığını düşünürlər.

Allah'ın qanununa əsasən, qəlblərində köklü mənəvi dəyişiklik etmədikləri təqdirdə, bu cür insanlar möminlərin arasında çox qalmayacaqlar. Öz istəkləri ilə möminlərin arasında qalmaq istəsələr də, Allah buna izin verməyəcək. Çünki onlar nəfslərini günahlarla örtür, pislikdən təmizlənməyə çalışmırlar. Allah isə qəti şəkildə pisi təmizdən ayıracağını vəd vermişdir:

***Allah pisi yaxşıdan ayırmayınca möminləri sizin olduğunuz vəziyyətdə qoyan deyildir... (Ali-İmran surəsi, 179)***





Sevgi hər bir insanın istədiyi Allah'ın çox böyük nemətidir. Əxlaqından, şəxsiyyətindən, inancından, mədəniyyətindən, həyat tərzindən asılı olmayaraq, bütün insanlar ətrafındakı insanlarda sevgini axtarırlar.

Ancaq sevgini dəyərli görən insanların çox az qismi bilir ki, hörmət də sevgi qədər əhəmiyyətlidir.

Sevgi nə qədər gözəl nemət olsa da, hörmət olmadan bu hiss tam mənada və daim yaşana bilməz. Bir insana duyulan sevginin həqiqi sevgi olması üçün bu insana hörmət etmək vacibdir.

İnsan həyatda çox şeyi sevə bilər. Pişiklərə, itlərə, çiçəklərə, yeməklərə, evlərə, maşınlara və bir çox şeyə qarşı coşğun sevgi bəsləyə bilər. Ancaq bunlar bir insana qarşı duyulan sevginin dərinliyinin və bu dərinliyin insanın ruhunda yaratdığı gözəlliyin həzzi ilə müqayisə edilə bilməz.

## Həqiqi sevgi ancaq hörmətlə yaşana bilər





**Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!**
**(Rum surəsi, 21)**

Allah insanı digər varlıqlardan fərqli olaraq ruh ilə yaratmışdır. Buna görə də, hər bir insan ruhundakı zənginliklə qarşı tərəfdə müxtəlif təsir meydana gətirir. Hər bir insan ruhunun gözəlliyi nisbətində sevgini yaşayır.

Özündə nə qədər çox seviləcək və hörmət ediləcək xüsusiyyət varsa, insanlar onu bu nisbətdə sevirlər. Eyni şəkildə, öz ruhunda sevilib hörmət ediləcək xüsusiyyətlərə qarşı nə qədər həssaslıq varsa, insanlardakı gözəllikləri də o nisbətdə görüb, onları o nisbətdə sevə və hörmət edə bilər.

İnsan dünyadakı bütün varlıqlara sevgi bəsləyə bilər, amma dərin sevgini və ondan qaynaqlanan hörməti ancaq ruh sahibi olan insana bəsləyə bilər.

Sevilən insana verilən dəyərin ifadəsi hörmətdir. O insana nə qədər dəyər və nə qədər əhəmiyyət verilməsinin sübutudur. İnsanlar həyatları boyu bir çox insana müxtəlif cəhətdən sevgi və simpatiya bəsləyə bilərlər. Amma bunların çoxu müvəqqətidir. Məsələn, bir insan iş yerindəki yoldaşını dost kimi görər və müəyyən nisbətdə sevgi bəsləyə bilər. Ya da eyni məhəllədə yaşayan qonşusu ilə də dostluq edər və onu müəyyən dərəcədə sevər. Amma çox hörmət etdiyi, dəyər verdiyi, əhəmiyyət verdiyi bir insana bəslədiyi sevgi tamamilə başqa cürdür.

Bu cür sevgidə çox böyük bir hörmət var. Sarsılmaz sədaqət var. Ölənə qədər davam edən bir sirdaşlıq var. O insana qarşı dərin güvən hissi var. Bu sevgini yaşayan insan qarşısındakı insanı ona zərər verə bilən bütün şeylərdən qoruyar. Allah rizası üçün ona qarşı diqqətli olar. Ən çətin vəziyyətdə olsa belə, hər zaman onu qoruyub mühafizə edər. Allah rizası üçün heç düşünmədən öz nəfsini əzib, üstünlüyü o insana verər.

Ancaq əlbəttə ki, bu hörmət insanlar arasında rəsmiyyət və uzaqlıq yaradan bir hörmət deyil. Bu hörmət anlayışında insanlar bir-birləri ilə çox səmimi və yaxın olurlar.

Amma eyni zamanda da qarşılıqlı olaraq bir-birlərinə ciddi şəkildə dəyər verdikləri üçün atdıqları hər addımı, söylədikləri hər sözü, hər hərəkətlərini düşünürlər. Buna görə də bu hörmət anlayışı

insanların sevgidəki coşğularını, dərinliklərini, yaxınlıqlarını və bir-birlərinə olan güvənlərini artıran gözəllik şəklində olur.

Bu mövzu üzərində də düşünmək əhəmiyyətlidir: "Bir insana sevgi ilə yanaşı hörmət edilməsə, nə olar?"

Bu sualın cavabı hörmətin nə üçün bu qədər əhəmiyyətli və lazımlı olduğunu açıqlayır.

Hörmət olmasa, insan qarşısındakı insanı çox sevməsinə baxmayaraq, hər hansı bir vəziyyət qarşısında öz nəfsini ondan üstün tutar. Öz qürurunu və etibarını qorumaq üçün onu asanlıqla gözardı edər. Öz düşüncələrini, qərarlarını, həyata baxışını onunkundan üstün tutar. Özü ona inanmaqdansa, onun özünə inanmasını gözləyər.

Özü o insanın fikirlərini qəbul etməkdənsə, onun öz fikirlərini qəbul etməsini istəyər. Özü ona haqq verməkdənsə, qarşısındakının həmişə və mütləq özünə haqq verməli olduğuna inanar. Özü səbirli, mülayim, anlayışlı olmaqdansa, bunları həmişə qarşı tərəfdən gözləyər. Hər zaman öz rahatlığının və istəklərinin öndə gəlməsini istəyər. "Onsuz da sevirəm, o da bunu bilir" - deyə düşünərək, qarşısındakı insanla öz istədiyi kimi rəftar etməkdən çəkinməz. Qısası, o insana dəyər verdiyini bütün hərəkətlərində göstərməkdənsə, bütün bunları qarşı tərəfdən gözləyər.

Halbuki insanlar arasındakı sevgi çox güclü olsa belə, hörmət olmasa, qısa zamanda bu sevgi tükənər. Bu insanlar sevgini yaşaya biləcəkləri halda, onu öz əlləri ilə məhv edərlər. Bunun nəticəsində də, insanlar bir-birlərinə sadəcə dözməyə başlayar, bir müddətdən sonra aralarındakı dostluğu itirərlər.

Sevgi Allah'ın insanlar üçün yaratdığı, nəfsin həm dünyada, həm də axirətdə xoşuna gələn nemətlərdən sadəcə biridir. Sevgini axtaran və bunu ən gözəl şəkildə yaşamaq istəyən hər insan hörmətin də əhəmiyyətini başa düşməlidir. Hörmət olmadan dostluq, yoldaşlıq, sirdaşlıq, sədaqət, güvənmək kimi xüsusiyyətlərdən danışmaq düzgün olmaz. Bu cür sevgi və hörməti insanlara qazandıran xüsusiyyət isə sadəcə imandır. Dərin Allah sevgisi, Allah qorxusu Quran əxlaqını yaşamaqdakı qətiyyət insanların bir-birlərinə həqiqi sevgi və hörmət bəsləmələrinə səbəb olar. İman olmadan insanların bir-birlərinə göstərəcəkləri hörmət və sevgi sadəcə fiziki xüsusiyyətlərinə, maddi imkanlarına və dünyəvi mövqelərinə əsaslanar. Bunlardan hər hansı birində əksiklik olsa, sevgi və hörmət hissləri də aradan qalxar. İmandan qaynaqlanan sevgi və hörmətdə isə, Allah'ın izni ilə, insanların həyatlarının sonuna qədər davam edəcək bir nemətin qapısı açılar.

Allah Quranda sevgi nemətini iman gətirənlər üçün yaratdığını bu cür açıqlayır:

***İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman (qəlblərdə) bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)***



# Fosillər Təkamülü Təkzib Edir

## Qarabatdaq kəlləsi

*Dövr: Miosen dövrü*
*Yaş: 18 milyon il*
*Bölgə: Çili*

*Rəsmdəki qarabatdaq kəlləsi fosili 18 milyon illikdir. Bu fosil 18 milyon il bundan əvvəl yaşayan qarabatdaq quşlarının dövrümüzdəki nümunələrindən heç bir fərqi olmadığının dəlilidir. Bu oxşarlıq həmin canlıların milyonlarca ildir dəyişmədiyini, yəni təkamül keçirmədiyini göstərir.*









## Antilop Kəlləsi Fosili

*Antilop Kəlləsi Fosili*
*Dövr: Pliosen dövrü*
*Yaş: 4.6 milyon il*
*Bölgə: Nei Meng Gu, Çin*



*Əgər təkamül doğru olsaydı, saysız-hesabsız növün dəyişdiyini göstərən milyardlarla ara keçid forması olmalı idi. Fosil qeydlərində bütün xüsusiyyətləri əks etdirən qüsursuz canlılar əvəzinə, tam inkişaf etməmiş, dövrümüzdəki formasına sahib olmayan canlıların qalıqlarını görməli idik. Halbuki, bugünə kimi darvinistlər bir dənə də ara keçid forması göstərə bilməyiblər. Əksinə hazırda yaşayan canlılarının heç bir dəyişikliyə məruz qalmadan mövcud olduğunu göstərən fosillər milyonlarladır və kitablarda, sərgilərdə insanlara yaradılışın dəlili olaraq göstərilir.*









# İman Edən Alimlər



## İohann Kepler

*Kepler deyirdi:*

***"Biz astronomlar, Allah dininin tərəfdarları təbiət kitabına baxaraq Allah`a şükür etməliyik".***

**Astronomiyanın banisi olan dahi alim planetlərin hərəkətini hesabladı, Günəş sistemindəki məsafə və ölçünü müəyyən etdi, ulduzların göy qübbəsində hərəkətini əks etdirən ilk astronomik təqvimi buraxdı.**

**Dərin elmi bilgilərə sahib olan Kepler, bununla belə, kainatı Yaradanın xəlq etdiyinə inanırdı. Kepler ondan: "Nə üçün elmlə məşğul olursan", - deyə soruşanlara: "Yaradanın əsərlərindəki ləzzəti hiss etmək üçün", - deyə cavab vermişdir.**

**Kepler inanırdı ki, Allah hər əsərində Özü haqda şahidlik edir. Onun həyatını və elmi əsərlərini öyrəndikdə qarşımıza geniş dünya görüşlü və kainatda İlahi mənanın varlığına qəti əmin olan bir insan çıxır.**

**Kepler özünə belə suallar verirdi: "Ağ ayıları və ağ canavarları qar basmış şimal sahələrinə kim göndərdi? Balina, ayı və canavarların yeminə çevrilən yumurtaları qoyan quşları kim orada məskunlaşdırdı?" Özü də cavab verirdi: "Bu, bizim Allah`ımızdır və O, hər kəsdən yüksəkdədir. Onun müdrikliyi sonsuzdur və Onun heç bir hüdudu yoxdur". Kepler öz düşüncələrini bu cür davam etdirirdi: "Yaradanı anlamaq üçün bütün hisslərinizdən və intuiasiyanızdan istifadə edin".**


www.Allahrizasi.net
ALLAH RIZASI


www.dinsizliyindini.com
HARUN YƏHYA
Dinsizliyin dini ilə mübarizə
Dinsizliyin Dini Nədir?
Materializm və Darvinizm
Materializmin Gətirdiyi Saxta dinlər
Dinsizliyin Ataşa Çağıran Önderləri
Dinsiz Bir Millət Yaşaya Bilməz


www.adamliqdini.com
Harun Yəhya
Cahiliyə cəmiyyətinin sitayiş etdiyi din
Adamlıq dini
HƏYATA BAXIŞINIZ
DƏYİŞƏCƏK
MÜSƏLMAN ALLAHIN BƏYƏNMƏDİYİ DANIŞIQ
ÜSLUBUNDAN İMTİNA EDƏR


www.Allahinsonsuzgucu.net
Allah'ın Sonsuz
Gücü
HARUN YAHYA

## Adnan Oktarın (Harun Yəhya) Azərbaycan dilində rəsmi saytı:

# WWW.ADNANOKTAR.AZ




**Qeyd: Daha əvvəl rəsmi sayt olaraq fəaliyyət göstərən www.harunyahya.az ünvanı müəllifə aid deyil və tamamilə başqa bir sayta yönləndirilib.**